www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 iyul 2015-ci il Çərşənbə axşamı № 146 (6174) Qiymәti 40 qəpik

## Xəbər

### Ailəsini, 3 uşağını qoyub Suriyaya gedən azərbaycanlı öldürüldü

yazısı səh.4-də

## Gündəm

### "Abbas Abbasovun adamı Beynəlxalq Banka sədr gətirilir" - şok iddia



Hakimiyyətin Rusiyadakı müxalifətinin sponsoru ilə bağlı başqa iddia da var; bankın Moskva filialının rəhbəri Fuad Abdullayevlə baş nazirin sabiq 1-ci müavinini və Vəzirov klanını hansı maraqlar bağlayır?

yazısı səh.8-də

### İctimai Palatanın bərpası təklif olundu

yazısı səh.5-də

### Ermənistan "narıncı inqilab"a doğru gedir?

yazısı səh.5-də

### Cəbhədə artan gərginlik və müharibə hazırlıqları, yoxsa...

yazısı səh.8-də

### MTRŞ "Space"-yə güzəştə gedir...

yazısı səh.11-də

### Axtarışda olan iş adamının vəkili danışdı

yazısı səh.12-də

### Ermənistan iqtisadiyyatı defolt təhlükəsi qarşısında

yazısı səh.13-də

### Çin rejiminin zülmünə məruz qalan uyğurların şanlı keçmişi və bu günü...

yazısı səh.15-də

### Müstəntiq günahı qəzada ölən sərnişinin üstünə atdı

yazısı səh.14-də

### Banklar kredit faizlərini artırdı

yazısı səh.2-də

### Qorxanda dil niyə tutulur...

yazısı səh.15-də

### Ramazan ayının 20-ci günü

İftar 21.30. İmsaq (azan) 4.48 (QMİ)

20-ci günün duası: "İlahi, bu gün mənim üçün behişt qapılarını aç və cəhənnəm qapılarını bağla! Belə bir gündə məni Quran oxumağa müvəffəq et! Ey möminlərin qəlblərini sakitləşdirib Aram Edən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

Bu gün 2-ci Qədr gecəsidir.

## Qərb-Rusiya qarşıdurması daha da dərinləşdi

# YUNANISTANI BİTİRƏN ƏN ƏSAS SƏBƏB: "KREMLLƏ DOSTLUQ..."

Ölkə maliyyə böhranından bu vəziyyətə düşsə də, onun indiki çöküşü daha çox siyasi səbəblərə bağlıdır; bu, Rusiya ilə təhlükəli həddə yaxınlıq edən digər ölkələr üçün də bir xəbərdarlıq sayılmalıdır; Kremlin ağuşundakı Ermənistanda Avropa Birliyinin bayraqlarının dalğalanması bəlkə də bu prosesin başlanğıcıdır...




yazısı səh.9-da

## Şirvanda hərbi təyinatlı zavodda partlayış - ölən və yaralananlar var

Yavər Camalovun zavodundakı 1 nəfərin ölümü, 19 nəfərin yaralanması ilə nəticələnən hadisədə terror izi də araşdırılır; müəssisənin direktoru "Yeni Müsavat"a olayın təfərrüatlarını danışdı

yazısı səh.4-də



### Kollegìyadan çıxarılan vəkìl təzyiq altında olduğunu deyir

yazısı səh.7-də



*Nigar Yaqublu:*

### "Düşünürdüm ki, Nərgizdən sonra yəqin atamı həbsxanaya qaytarmazlar"

yazısı səh.3-də



### YAP Leyla Əliyevanın deputatlığa namizədliyini irəli sürəcək

yazısı səh.2-də



## İlham Əliyev yol tikintisinə səkkiz milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Quba rayonunun Rustov-Xanəgah-Gürdəh, Rustov-Nöydün-Şuduq, Rustov-Məckəxacə, Rustov-Bağçalı-Yekdar avtomobil yollarının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, altı min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Rustov-Xanəgah-Gürdəh, Rustov-Nöydün-Şuduq, Rustov-Məckəxacə, Rustov-Bağçalı-Yekdar avtomobil yollarının tikintisinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,0 (səkkiz) milyon manatı Quba Rayon İcra Hakimiyyətinə ayrılıb.

Maliyyə Nazirliyi və Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Yəmənin bombalanması nəticəsində 45 dinc sakin həlak olub

**Yəmənin Ədən şəhərinin havadan bombardman edilməsi nəticəsində 45 dinc sakin həlak olub. APA-nın xəbərinə görə, bu barədə "Sky News Arabia" telekanalı məlumat yayıb. Məlumata görə, şəhərin şimal hissəsindəki ticarət mərkəzinə düşən bombalar 45 nəfərin həyatına son qoyub.**

Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi koalisiya qüvvələri martın sonundan etibarən Yəməndə hakimiyyəti ələ keçirən "Ənsər Allah" (husilər) hərəkatının mövqelərinə hava zərbələri endirir.

## Avropa Oyunlarının qızıl medalçısı bahalı avtomobil aldı

**I Avropa Oyunlarında Azərbaycana qızıl medal qazandıran Ayxan Tağızadə özünə yeni avtomobil alıb. O, bu barədə özünün İnstagram səhifəsində məlumat verib. Taekvondo üzrə kişilər arasında 68 kiloqram çəkidə qızıl medal qazanan Ayxan aldığı "Dodge" markalı maşının fotosunu paylaşıb və "Min şükür, Allah" deyə qeyd edib.**

Ayxan Tağızadə açıqlamasında yeni maşın aldığını təsdiqləyib. Aldığı maşının qiymətini açıqlamayan idmançı avtomobil sürməyə həvəsinin olduğunu deyib.

Əldə etdiyimiz məlumata görə, A.Tağızadənin yeni avtomobili 61 min manat dəyərindədir.

Xatırladaq ki, ölkə başçısının sərəncamına əsasən I yer tutmuş hər bir idmançıya 150 min manat (prezidentin sərəncamı ilə 100 min + MOK tərəfindən 50 min) pul verilib (azvision.az).

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Elm" tədris mərkəzi**

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# YAP Leyla Əliyevanın deputatlığa namizədliyini irəli sürəcək

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva 2015-ci ilin noyabr ayında keçiriləcək parlament seçkilərində hakim Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədi ola bilər.**



Bu barədə YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov modern.az saytına eksklüziv açıqlamasında məlumat verib.

Siyavuş Novruzov bildirib ki, YAP-da Leyla Əliyevanın namizəd olması ilə bağlı yekdil fikir var. Onun sözlərinə görə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə xaricdə Azərbaycan haqqında aparılan təbliğat, "Xocalıya ədalət" kampaniyasının həyata keçirilməsi ölkəmizin beynəlxalq aləmdə tanınmasında mühüm rol oynayıb:

"Amerikanın 20-dən artıq ştatı Xocalı soyqırımını tanıyıb. Bundan başqa, bütün müsəlman ölkələri Ermənistanın Xocalıda soyqırım törətdiyini qəbul edib. Bütün bunlar Leyla Əliyevanın xidmətləridir. Belə bir gəncin xaricdə millət vəkili olaraq Azərbaycanı təmsil etməsi çox önəmli məsələdir".

YAP icra katibinin müavini onu da qeyd edib ki, Leyla Əliyeva hər zaman təmənnasız olaraq kimsəsizlərə, xəstələrə, imkansız adamlara kömək göstərir, xaricdə təhsil alan tələbələrə dəstək verir.

"YAP bütün bunları nəzərə alıb, Leyla xanımın namizədliyini irəli sürmək istəyir. Bu, bütün partiya üzvlərinin istək və arzusudur. Bu istək və arzular partiya rəhbərliyinə çatdırılacaq. Lakin son qərarı Leyla Əliyevanın özü verəcək. Leyla Əliyeva Azərbaycan gəncliyi üçün bir nümunədir, Azərbaycan gəncliyinin lideridir. Hamı bilir ki, cənab prezidentin övladı Azərbaycan üçün nə qədər böyük işlər görüb. Azərbaycanı tanıdan, mədəniyyətimizi, tariximizi dünya səviyyəsində təbliğ edən Leyla xanım gənclərimizə örnəkdir. Kaş məmur övladlarının on faizi Leyla Əliyeva qədər Azərbaycana bağlı olaydı, Azərbaycana xidmət edəydi. Azərbaycanın Leyla Əliyeva kimi gənclərə böyük ehtiyacı var".

Leyla Əliyeva Bakıda 160 saylı məktəbdə oxuyub. İsveçrədə və Böyük Britaniyada ali təhsil alıb. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda magistr pilləsini bitirib. O, Heydər Əliyev Fondunun vitse-prezidenti olmaqla yanaşı, həmçinin Moskvada rus dilində nəşr olunan "Baku" jurnalının baş redaktoru, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) sədri, İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisidir.

O, 2011-ci il, iyulun 4-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunub.



## Azərbaycan vətəndaşı Təbrizdə özünü asıb

**İyulun 6-da Təbrizdə "Ceganima Hotel"də intihar hadisəsi baş verib. Məlumata görə, səhər saatlarında Azərbaycan vətəndaşı olduğu deyilən orta yaşlı kişi hotelin küçəyə açılan pəncərəsindən özünü asıb.**

Bu barədə musavat.com-a 50000000.informasiya agentliyindən məlumat daxil olub. İntihar edən şəxsin kimliyi barədə hələ ki rəsmi məlumat verilməyib. Hadisənin hansı şəraitdə baş verdiyi araşdırılır.

❑ Xalidə Gəray

## Bakıda yük avtomobili ilə toqquşan "Lada"nın sürücüsü ölüb

**Bakıda sürücünün ölməsi ilə nəticələnən yol qəzası baş verib. "Trend" Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadən xəbər verir ki, Bakı şəhəri, Xəzər rayonunda "Lada" markalı minik avtomobili ilə "BMC" markalı yük avtomobili toqquşub.**

Nəticədə "Lada" markalı minik avtomobili deformasiyaya uğrayıb, sürücüsü 1950-ci il təvəllüdlü Şabanov Eldar Sultan oğlu hadisə yerində vəfat edib. Xilasedicilər cəsədi avtomobildən çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

## Ailəsini, 3 uşağını qoyub Suriyaya gedən azərbaycanlı öldürüldü

**Suriyada daha bir azərbaycanlı öldürülüb. İŞİD silahlı terror qruplaşması tərkibində vuruşan 1985-ci il təvəllüdlü Fikrət Əliyev bir neçə gün əvvəl öldürülüb. Musavat.com-un əldə etdiyi məlumata görə, Bakıda doğulan və Zirə qəsəbəsində yaşayan Fikrət Əliyev 3-4 ay əvvəl ailəsini ataraq Suriyaya getmişdi. F.Əliyev Suriyaya getməmişdən əvvəl ikinci dəfə də ailə həyatı qurub. Onun ikinci dəfə ailə həyatı qurduğu xanımı da hazırda Suriyadadır. Azərbaycanda isə birinci xanımından olan 3 övladı qalıb.**

Xatırladaq ki, Suriyaya gedərək müxtəlif silahlı qruplaşmalara qoşulan azərbaycanlıların sayı gün keçdikcə artır. Əvvəllər ölən azərbaycanlıların şəkilləri qruplaşmaların digər üzvləri tərəfindən sosial şəbəkələrdə paylaşılırdı. Son zamanlar isə bu olmur. Əsas səbəb olaraq isə meyitlərin döyüş gedən ərazilərdən çıxarıla bilməməsidir.

Onu da qeyd edək ki, son zamanlar Suriyaya döyüşməyə gedən radikallar hansısa yollarla Azərbaycana qayıdırlar.

Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilmiş sonuncu əməliyyat-axtarış tədbirləri nəticəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, habelə tərbiyə etmək vəzifəsini daşıyan şəxs kimi yetkinlik yaşına çatmayan şəxsi ağır cinayətin törədilməsinə cəlb etmə və başqa hüquqazidd əməllərinin törədilməsinə görə ümumilikdə 26 nəfər saxlanıb.

❑ Musavat.com

## Bakı-Sumqayıt yolunda dəhşətli qəza: sərnişinin ayağı qopdu

**Bakı Sumqayıt yolunda, Saray postuna çatmamış benzindoldurma məntəqəsinin yaxınlığında "Mercedes" markalı mikroavtobusun sürücüsü idarəetməni itirərək, yaxınlıqda satışa qoyulmuş traktorlara çırpılıb. FaktXəbər-in hadisə yerində olan müxbirinin verdiyi məlumata görə, minik maşınında olan sərnişinlərdən birinin ayağı qopub. Onun ayağı oturacağın altından çıxarılıb. Digər iki nəfərin həlak olduğu deyilir.**

## Rusiyanın Su-24M hərbi təyyarəsi qəzaya uğrayıb

**Rusiyanın Xabarovsk vilayətində Su-24M təyyarəsi qəzaya uğrayıb. "Report" RİA "Novosti"yə istinadən xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyindən bildirilib. Məlumata görə, hər iki pilot həlak olub.**



## Həmsədrlər Vaşinqtonda Dağlıq Qarabağ münaqişəsini müzakirə edirlər

**ATƏT-in Minsk Qrupunun həmsədrləri Ceyms Uorlik (ABŞ), Pyer Andryö (Fransa) və İqor Popov (Rusiya) Vaşinqtondadırlar.**

"Trend"in məlumatına əsasən, bu barədə C.Uorlik twitterdəki səhifəsində yazıb.

Diplomatın sözlərinə görə, həmsədrlər ABŞ Müdafiə Nazirliyində, eləcə də Milli Təhlükəsizlik Şurasında keçirəcəkləri görüşlərdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini müzakirə edəcəklər.

## Banklar kredit faizlərini artırdı

**Azərbaycan Mərkəzi Bankının (AMB) kommersiya banklarına müştərilərə verilən kreditlərin rəsmiləşdirilməsi üçün tutulan komissiya haqqının 1%-i keçməməsi barədə verdiyi göstərişdən 1 həftə keçir.**

Fins.az-ın bank sektorunda apardığı araşdırma nəticəsində məlum olub ki, bankların bir qismi komisyon haqqını 1%-ə qədər azaltsa da, bəzi banklarda vəziyyət dəyişməyib və onlar AMB-nin göstərişini sadəcə tövsiyə kimi qəbul ediblər.

Məsələn, aktiv kreditləşmə ilə məşğul olan "AGBank"da komisyon haqqı 5,5-9,5%, "Azərbaycan Beynəlxalq Bankı"nda 7-12%, "Bank BTB"də 4-6%, "Parabank" və "Rabitəbank"da 2%, "Caspian Development Bank"da 3-5%, "Muğanbank"da 6-11%-dir.

"Amrahbank", "Bank of Baku", "Bank Respublika", "Bank Silk Vey", "Bank Nikoil", "Turanbank", "Unibank", "Yapı Kredi Bank Azərbaycan" isə komisyon haqqını 1%-ə endirib.

Bununla belə, araşdırma nəticəsində məlum olur ki, komisyon haqqını 1%-ə qədər azaldanlar əvəzində kreditlərin illik faiz dərəcəsini artırıblar. Məsələn, hazırda "Bank of Baku"da manatla kreditlər illik 35-39%-lə, dollarla kreditlər isə 34-38%-lə verilir.

Halbuki komisyon haqqını azaltmazdan əvvəl bank milli valyutada kreditlər 32-34%-lə, xarici valyutada kreditləri isə 28-30%-lə ayırırdı. Komisyon haqqını azaltmış "Unibank"da isə manatla kreditlər 32%-dən 40%-ə qədər, dollarla kreditlər isə 26-28%-dən 35%-ə bahalaşıb.

YENİ MÜSAVAT
N 146 (6174) 7 iyul 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# “Elə bilirəm, Nərgiz facebookda yazdıqlarımı görür, bu, məni sakitləşdirir”

## Nigar Yaqublu: “Nərgizin oğlu bir az böyüyəndən sonra yay aylarında bura gələr...”

**Müsavat başqanının müavini, hazırda həbsdə olan Tofiq Yaqublunun ailəsində matəm əhvalı davam edir. Qızı Nərgiz Yaqublunun vaxtsız ölümü həm siyasi məhbusu, həm də ailənin digər üzvlərini pərişan edib. Ailə toparlana bilmir, T.Yaqublunun böyük qızı, keçmiş siyasi məhbus olan Nigarın sosial şəbəkədəki statuslarında isə bu itki hər gün daha ağrılı şəkildə özünü göstərir. Musavat.com Nigarla itirdiyi bacısı, onun oğlu, Tofiq bəyin durumu barədə qısaca söhbətləşdi.**

***- Nigar, necədir vəziyyətin, halın-əhvalın? Sosial şəbəkədən izlədiklərimdən görürəm: Nərgizli statuslarının arası kəsilmir... Yazmaq azaldırmı ağrılarını?***

- Elə bir vəziyyətdir ki, adam “necəsən” sualına cavab verə bilmir. Nərgizsiz həyatımız çox pərişandır. Onun yoxluğuna bir türlü inana bilmirəm. Bəzən fikirlərimi facebookda paylaşıram. Bu bir az məni sakitləşdirir. Elə bilirəm ki, Nərgiz yazdıqlarımı görür. Onun üçün necə darıxdığımı hiss edir.

***- Maya xala necədir? Rəhimin universitetə hazırlığı nə yerdədir?***

- Ananın durumu isə daha pərişandır. Övlad itkisini yaşamaq ona ən böyük zərbə oldu. Bəzən öz-özünə deyir ki, kaş, o da həbs olunardı. Bilərdim ki, müəyyən dönəmdən sonra geri qayıdacaq. Amma reallıq...... Qardaşın Rəhimə gəlincə, bu ayın 25-i universitetə qəbul imtahanı verəcək. Onun universitetə hazırlıq illəri çox gərgin və stressli keçdi. Ancaq həyat davam edir. O da bir məslək sahibi olmalıdır.

***- Nərgizin oğlundan xəbər ala bilirsizmi? Uşağı yanınızda saxlamaqla bağlı atası ilə danışığınız olubmu?***

- Kənanımızı çox istərdik ki, yanımızda saxlayaq. Amma onun bir atası var və körpəni ondan istəməyə haqqımız yox. Düzü, bu barədə ailələr arasında heç bir danışıq olmayıb, Kənan bir az böyüyəndən sonra yay aylarında bura gələr. Qalan aylarda biz onun yanına gedərik.

***- Tofiq bəydən nə xəbər var? Axırıncı dəfə nə zaman əlaqə saxlamısız? Nə deyir?***

- Elə bu gün (bazar günü-red.) ata ilə görüşdüm. Nərgizin yoxluğu onu çox üzür. Bəlli etməməyə çalışsa da, ancaq bəzən bu mümkün olmur. Havaların çox isti olması oradakı məhbuslar üçün əlavə bir işgəncədir. Məlum həbsxananın rejim qaydaları bunu deməyə əsas verir. Üstəlik də həbsxana daş karxanalarının ortasında yerləşdiyindən küləkli havada orada nəfəs almaq daha da çətin olur. Tozdan göz gözü görmür. Ata da astma xəstəsi olduğundan belə vəziyyət onun sağlamlığına daha da mənfi təsir göstərir.

***- Əfvlə bağlı gözləntiləri varmı?***




“Düşünürdüm ki, Nərgizdən sonra yəqin atamı həbsxanaya qaytarmazlar”

- Ümumiyyətlə, əfvlə bağlı heç bir gözləntim olmayıb heç vaxt. Hətta bu məsələ gündəmə gələndə belə bu söhbətlərə inanmamışam. Və hər dəfə də bu öz təsdiqini tapıb. Düşünürəm ki, yəqin yeni ildə azad edərlər siyasi məhbusların bir qismini. Ancaq onların arasında atanın olacağına o qədər inamım yoxdur. Tofiq Yaqublunu azad etmək üçün xeyli fürsətlər olub. Düşünürdüm ki, Nərgizdən sonra yəqin onu həbsxanaya qaytarmazlar. Ən azından insanın acısına sayğı duyarlar. Ancaq reallıq onu göstərdi ki, bunlardan heç bir insanlıq gözləməyə dəyməz.

❑ **Sevinc TELMANQIZI**

# Müdafiə Nazirliyi Şınıx bölgəsindən gələn xəbərə reaksiya verdi

## Nazim Məmmədov: “Hərbçilər burada da bir neçə post qurub, eyni zamanda müxtəlif yerli vəzifə sahibləri gölün ətrafında müxtəlif iaşə obyektləri tikiblər”

**Əslən Gədəbəydən olan keçmiş deputat, iqtisadçı ekspert Nazim Məmmədovun doğma bölgəsindəki bir yas mərasimində iştirakı zamanı yerli sakinlər ondan üzləşdikləri problemlərlə bağlı yardım istəyiblər. Onların iddiasına görə, Ermənistanla sərhəd bölgəsində xidmət aparan hərbçilər Şınıxda sərhəd zolağının minalandığını əsas gətirərək yerli əhalinin əkin - biçənəyindən istifadəni məhdudlaşdırır.**

Məqsəd də camaatın pay torpaqlarını başqa rayonlardan gələn qoyun sürüsü sahiblərinə pulla verməkdir. Eyni zamanda sakinlər keçmiş deputatlarına gileyləniblər ki, əsas dolanışıqları əkinçilik və heyvandarlıq olsa da, torpaqlardan istifadə edə bilməmələri səbəbindən aran rayonlarından 2 manat 50 qəpiyə və 3 manata ot bağlaması alırlar ki, son nəticədə də qazanmaq əvəzinə xərcə düşürlər, buna görə də həm dolanışıqlarını, həm məşğulluqlarını itirmiş olurlar.



Vaqif Dərgahlı



Nazim Məmmədov

**Nazim Məmmədov moderator.az-a açıqlamasında bildirdi ki, sakinlərin problemlərini dinləməklə kifayətlənməyib və həm hərbçilərlə bağlı məsələni araşdıracağını, lazımi qurumlara çatdıracağını, həm də əhalinin aztəminatlı hissəsinin ehtiyaclarını nəzərə alaraq əkinçiliklə məşğul olan sakinlərin pulsuz toxumla təminatını öz üzərinə götürüb:** “Onlara bildirdim ki, bu il cənab prezident tərəfindən ”Kənd təsərrüfatı ili” elan olunub və iri fermer təsərrüfatlarının yaradılmasıyla bağlı müvafiq sərəncam imzalanıb. Mən sakinlərə birləşərək iri fermer təsərrüfatı yaratmalarını təklif etdim və Sahibkarlığa Kömək Milli Fonduna da onların adından xahiş edərək lazımı vəsaitlərin yönəldilməsinə çalışacağıma söz verdim. Eyni zamanda onlara gücüm çatdığı qədər pulsuz toxum almağı da boynuma götürdüm. Məqsədim də əhalini torpağa daha da bağlamaq və onların dolanışığının təmin edilməsinə yardım etməkdir. Bu camaatın başqa məşğuliyyəti yoxdur. Torpaq olmasa, əkin-biçinlə məşğul olmaq imkanı əllərindən alınsa, dolanışıqları acınacaqlı vəziyyətə düşəcək, bu isə çoxsaylı fəsadlara səbəb ola bilər”.

**Bu kimi halların yerli sakinlərlə hərbçilər arasında xoşagəlməz hadisələrə səbəb olmaması üçün təbii ki, operativ müdaxilə zərurəti var. Müdafiə Nazirliyinin məsələ ilə əlaqədar mövqeyini öyrənmək üçün mətbuat xidmətinin rəisi Vaqif Dərgahlıya müraciət etdik.**

**Xidmət rəisi “Yeni Müsavat”a bildirdi ki, bu barədə yayılan məlumatlarla tanışdır, ancaq vəziyyətin yazıldığı kimi olduğuna inanmır:** “Maraqlıdır, Nazim Məmmədov kənd sakinləri ilə görüşdüyü halda, hərbçilərlə niyə görüşməyib? Əgər kəndlilərin narazılığı varsa, gedib hərbi qulluqçularla da görüşə bilərdi və vəziyyəti daha da aydınlaşdırardı. Ancaq əslində belə bir problem yoxdur. Əgər doğrudan da belə bir problem varsa, rəsmi qaydada müraciət etmək olar. Yeni məsələyə birtərəfli qaydada yanaşmaq düzgün deyil”.

**Müdafiə Nazirliyinin mövqeyi ilə əlaqədar hazırda Gədəbəydə olan N.Məmmədovla təkrar əlaqə saxladıq. Dedi ki, hərbçilərlə də görüş planlaşdırır:** “Ancaq Başkənd gölünün ətrafında yerli və şəhərdən gələn qonaqların dincəlməsi üçün boş ərazi qalmayıb. Hərbçilər burada da bir neçə post qurub, eyni zamanda müxtəlif yerli vəzifə sahibləri gölün ətrafında müxtəlif iaşə obyektləri tikiblər. Hamısı da qanunsuzdur, çünki bu torpaqların və gölün hüquqi statusu müəyyən olunmayıb. Yerli əhali ilə söhbətlərdən belə məlum olur ki, bu şəraiti də hərbçilər yaradır. Ancaq mən də şəxsən bir neçə il əvvəl 2010-cu ildə Başkənd gölünün çəpərlənməsinin qarşısını ancaq hörmətli Nəcməddin Sadıqova zəng etməklə ala bildim. Bir neçə il burada normal münasibət mövcud idi, heç vaxt bu qədər pərakəndəlik olmamışdı. Görünür, Bakıda çimərlikləri zəbt etmək kimi pis nümunələr Gədəbəyə də gəlib çatıb”.

**P.S.** *Nazim Məmmədov yazı çapa hazırlanarkən təkrar bizimlə əlaqə saxlayıb bildirdi ki, hərbi hissə komandiri ona telefon açıb və görüşmək istədiyini söyləyib: “Sadəcə axşam saatları olduğu üçün görüş bir gün sonraya təyin olundu. Komandirin telefon danışığından anladığım sadəcə kənd sakinləri bu barədə danışarkən məsələləri bir az şişirdiblər. Əslində əkin sahələri və biçənəklər məsələsində hərbçilərlə kəndlilər arasında elə bir ciddi problem yoxdur. Hər halda komandirlə görüşümüzün nəticəsi barədə sakinlərə və mətbuata əlavə məlumat veriləcək”.*

❑ **ELŞAD**

# Siyasi müstəvidə çevriliş qoxusu



**Azər RƏŞİDOĞLU**

**Ölkədə yenə də dövlət çevrilişi cəhdindən danışmağa başladılar. Yenə də kimlərinsə adı Qərbin məkrli planlarında səslənir. Lakin əvvəlki illərdən fərqli olaraq, bu dəfə dövlət çevrilişi ilə bağlı ittihamlara ciddi reaksiyalar verilmədi.**

Əslində çevriliş cəhdində yalnız müxalifətin adının hallandırılması hakimiyyət üçün o qədər də təhlükəli mənzərə yaratmır. Çünki indi prezidentin ətrafında elə məmurlar var ki, onlar hakimiyyət üçün həbsdə olan keçmiş məmurlardan daha təhlükəli və daha güclü görünürlər. Lakin ən müxtəlif qruplaşmalarla eyni vaxtda mübarizə ciddi problemlər doğura biləcəyindən indi hədəflərin dəyişməsi prosesi getməkdədir.

Belə fikirlər də var ki, dövlət çevrilişinə cəhd ittihamı öz aktuallığını itirsə də, gələcəkdə oxşar ittihamların səslənməyəcəyinə heç bir zəmanət yoxdur. Çünki hakimiyyətdaxili qruplaşmaların mövcudluğu və bu qruplar arasında ziddiyyətlərin kəskinləşməsi ilə bağlı hələ də müxtəlif fikirlər səslənməkdədir. Bu cür qruplardan hər hansı zərərsizləşdiriləndə adətən onlara söylənən ittiham dövlət çevrilişinə cəhd olur. Maraqlı məqam ondadır ki, Azərbaycanda nə zaman dövlət çevrilişi cəhdləri barədə danışmağa başlayıblar, bunun ardınca gurultulu həbslər müşahidə olunub. Məsələn, 2005-də həbslər dalğası hakimiyyətin içinə qədər yüksəldi.

Onu da vurğulamaq lazım gəlir ki, həbslər yalnız müxalifətdən olanda cəmiyyətdə və beynəlxalq aləmdə mənfi qarşılanır, gözlənilən nəticəni vermir. Odur ki, bu siyahıya bəzi məmurların adlarının əlavə ediləcəyi də istisna deyil.

Seçkiqabağı güclü şou yaratmaqla hakimiyyət cəmiyyətə öz qətiyyətli imicini təqdim etmək istəyə bilərdi. Lakin görünən budur ki, baş verənlər hakimiyyətdə olan məmur-oliqarxlarla Rusiyanın mümkün əlaqələrinə zərbə endirmək, Qərbin təsir agentlərini də dağıtmaq məqsədi daşıyır. ABŞ - a hücumlar, Rusiyanın təhdidlərinin həddən ziyadə şişirdilməsi hazırlanan “dövlət çevrilişi” ssenarisi və profilaktik tədbirlərdən xəbər verir. Ehtimal ki, seçkiyə az qalmış “dövlət çevrilişi cəhdi”nin “qarşısı alınacaq” və yeni gurultulu həbs dalğası fonunda cəmiyyətə növbəti dəfə “düzgün seçim” etmək təlqin ediləcək. “Dövlət çevrilişi filmi”nin daha təsirli olması üçün ssenaridə İranın, ərəb ölkələrindən gəlmiş radikal dinçilərin də yer alması son dərəcə mühümdür. Qərbin gözlənilən həbslərə reaksiyasını məhz “İslam terroru” naxışları ilə neytrallaşdırmaq mümkündür. Bu baxımdan, Rusiya və Qərbə qarşı addımlar atmağı planlaşdıran hakimiyyət oyuna islamçıları da qoşa bilmək üçün müxtəlif yollar düşünür.

İstisna deyil ki, bu dəfə “dövlət çevrilişi” ssenarisinə hansısa hərbi hissələr də cəlb oluna bilər. Şounun təsirli alınması üçün hərbçilərin də oyunda yer alması cəlbedici görünür.

Əlbəttə, hakimiyyətin özəl məlumatlara malik olması da istisna edilmir. O cümlədən kimlərinsə “təsir agentləri şəbəkəsi”ndə olduğunu da ehtimal etmək olar. Bunların məhz seçki öncəsi hakimiyyətin rəqiblərinə zərbə endirməkdən ötrü edildiyi ehtimalı daha inandırıcıdır. Odur ki, siyasi müstəvidən yenidən “çevriliş qoxusu”nun gəlməsini təsadüfi saymaq olmaz...

YENİ MÜSAVAT
N 146 (6174) 7 iyul 2015








# Şirvanda hərbi təyinatlı zavodda partlayış oldu

## Yavər Camalovun zavodundakı 1 nəfərin ölümü, 19 nəfərin yaralanması ilə nəticələnən hadisədə terror izi də araşdırılır; zavodun direktoru "Yeni Müsavat"a danışdı

**İyulun 6-da Müdafiə Sənayesi Nazirliyinin Şirvanda yerləşən "Telemexanika" zavodunda güclü partlayış olub. 3 saylı sexdə baş verən partlayış zamanı aldığı xəsarətlərdən 1 işçi ölüb, 19 nəfər yaralanıb və zəhərləniblər. Yaralılar Şirvan şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına aparılıb.**

Hadisə baş verəndən dərhal sonra ora yollandıq. Biz olay baş verən əraziyə çatanda zavodun qarşısında post qoyulmuşdu, ətrafda fəhlələr gözə dəyirdi. Zavodun mühafizə xidmətinin əməkdaşları binanın içinə heç kimi buraxmırdılar. Ərazidə Fövqəladə Hallar Nazirliyinin əməkdaşları da vardı. Zavodun binasından çıxan FHN əməkdaşlarından biri əlindəki kağızlara baxa-baxa tələsik maşınına tərəf gedirdi. Fəhlələr FHN əməkdaşının olay haqda məlumatlı olduğunu söylədilər. Həmin şəxsə yaxınlaşsaq da, hər hansı bir açıqlama vermək səlahiyyətində olmadığını deyərək suallarımızı cavablandırmaqdan imtina etdi. Zavodun qarşısında dayanan mühafizəçilər uzun mübahisədən sonra direktorla görüşümüzə şərait yaradacaqlarını söylədilər.

**Zavodun direktoru Usubağa Məmmədov bir neçə sualımızı cavablandırmağa razı oldu.**

**U.Məmmədov dedi ki, baş vermiş olayla bağlı araşdırma aparılır:**

- Burada mətbuatlıq bir iş yoxdur. Bu işlə məşğul olan bütün orqanlar buradadır. Axşam müvafiq orqanlar məlumat verəcək.

***- Partlayışın qəsdən törədilməsi haqda məlumatlar doğrudurmu?***

- Yox, qəsdən ola bilməz.

***- Partlayış baş vermiş sexdə vəhabilərin çalışması və hadisənin terror olması haqda şayiələr dolaşır. Bu məlumat nə dərəcədə doğrudur?***

- Onu araşdıracaqlar. Sadəcə qısaqapanma olub. 5 metr eni, 6 metr uzunu olan yerdir.

- Hadisə zamanı neçə nəfər ölüb, neçə nəfər yaralanıb?

- Mən özüm qarışıq 19 nəfər "uqar" tutub bizi. 1 nəfər rəhmətə gedib.

- Rəhmətə gedən kimdir? Ölümünün səbəbi nədir?

- 1985-ci ildən bizdə işləyirdi. 30 ildir ki, bizdə işləyirdi. Allah rəhmət eləsin.

- Zavodda, həmin o 3-cü sexdə nə baş verib?

- Ancaq yanğın olub, yanğın.

- Yanğının səbəbi nədir?

- Yanğın olub da. Evdə yanğın nədən baş verir? Yanğın olub, zəhərləniblər. Orada sexdə stol, stul yanıb.

- Sexdə stol, stullar nədən alışıb?

- Sonra danışarıq, deyərəm.

Zavod direktorunun qısa açıqlamasından sonra ətrafda olan zavodun işçilərinin də olayla bağlı fikirlərini öyrənmək istədik. Lakin fəhlələr olayla bağlı danışmaq istəmədilər. Zavodda vəhabilərin işləməsinə gəlincə isə onlardan biri dedi ki, vaxtilə burada 3 vəhabi çalışıb. Sonradan onları zavoddan uzaqlaşdırıblar.






Elə oradaca öyrəndik ki, "Telemexanika" zavodunda 300-ə yaxın işçi çalışır. Zavod 2006-cı ildə Müdafiə Sənayesi Nazirliyinin tərkibinə daxil edilib. Müəssisədə neft sənayesi üçün cihazlar və texnoloji tərtibatlar istehsal edilir. Amma bu yaxınlarda zavodda iriçaplı patronların istehsalı mərkəzi işə salınmışdı. Partlayışın da məhz iriçaplı patronların istehsalı mərkəzinin sexlərindən birində baş verdiyi haqda məlumat var.

***

Vaxtilə zavodda çalışmış şəxslərdən biri "Yeni Müsavat"a adının çəkilməməsi şərti ilə danışmağa razılıq verib. Deyib ki, partlayış baş vermiş sex zavodun ən qapalı sexidir. Həmin sexə zavod direktorunun özünün də girişi sex rəisi Şəhla Əliyevanın icazəsi ilədir. Ora giriş-çıxış xüsisi rejiminə görə digər sexlərdən fərqlənir. Sexdə çalışanların böyük əksəriyyəti qadınlardır. Yalnız ağır yüklərin daşınması üçün kişilər də çalışır. Sexdə texniki-təhlükəsizlik tədbirləri hər gün yoxlanılır, ayda bir neçə dəfə zavoddakı sexlərdə, o cümlədən partlayış baş verən sexdə əsaslı yoxlama tədbirləri həyata keçirilir.




Zavodda çalışmış şəxs deyir ki, orada partlayış baş verməsi çox ciddi şəkildə yoxlanmalıdır. O, partlayışın texniki-təhlükəsizlik qaydalarının pozulması üzündən baş verməsinə inanmadığını söyləyib.

Zavodun qarşısında, ətrafında partlayışdan əsər-əlamət yoxdur. Partlayışın səsini yalnız yaxınlıqdakı binalarda yaşayan sakinlər eşidiblər...

Öyrəndik ki, partlayışdan sonra əraziyə Müdafiə Sənayesi Nazirliyinin yüksək çinli məmurları, FHN əməkdaşları gəliblər. Zavoda müdafiə sənayesi naziri Yavər Camalovun da gəldiyi bildirilsə də, zavodun mühafizəçiləri bu məlumatı təsdiqləmədilər. Öyrəndik ki, ərazidə Müdafiə Sənayesi Nazirliyinin Tikinti İdarəsinin rəisi Tacəddin Hüseynov olub. O, oladan xəbər tutub zavodun qarşısına toplaşmış zərərçəkən fəhlələrin yaxınları ilə çox kobud davranıb, onlardan ərazidən uzaqlaşmağı tələb edib. Əlindəki kağız parçasını göstərərək "8 nəfər zəhərlənib, aparıblar xəstəxanaya, dağılışın" deyib. İdarə rəisinin müdafiə sənayesi naziri Yavər və Şirvan İcra Hakimiyyətinin başçısı Mərdan Camalovlarla yaxın qohumluq əlaqələrinin olduğunu da öyrəndik. Belə məlum oldu ki, idarə rəisi zərərçəkənləri və əraziyə gələn jurnalistləri ərazidən qovmaqla olayın məştabını kiçiltmək, heç bir olay baş verməmiş kimi göstərməyə nail olmaq istəyib.

Şirvan Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına bidiriblər ki, yaralılar zəhərlənmə və yüngül yanıq diaqnozları ilə xəstəxanaya yerləşdiriliblər. Onların vəziyyətləri yüngül və orta-ağır qiymətləndirilir.

Xəstəxanadan bildirdilər ki, ölən şəxs Şirvan şəhər sakini, 1967-ci il təvəllüdlü Raziyə Cəfərxan qızı Süleymanovadır. Qadın ağır yanıq xəsarətləri nəticəsində dünyasını dəyişib. Onun meyitinin tanınmaz halda olduğunu da öyrəndik. Hazırda xəstəxanada olan şəxslərdən biri - 1971-ci il təvəllüdlü Xatirə İnşallah qızı Səttarovanın vəziyyəti ağırdır. Qadın reanimasiya şöbəsindədir, həkimlər onun həyatını xilas etməyə çalışırlar.

**Xəstəxanaya gətirilən və vəziyyətləri orta-ağır olan sex işçiləri isə bunlardır:**

1966-cı il təvəllüdlü Mehparə Qurban qızı Əbilova

1961-ci il təvəllüdlü Gülnarə Vəlixan qızı Muradova

1964-cü il təvəllüdlü Həlimə Ordu qızı Vəliyeva

1960-cı il təvəllüdlü Şərqiyyə Ədalət qızı Rzayeva

1973-cü il təvəllüdlü Zülfiyyə Kamal qızı Mehdiyeva

Şirvan Şəhər Mərkəzi Xəstəxanasının Travmatologiya şöbəsinin müdiri Tofiq Hüseynov deyib ki, xəstəxanaya gətirilənlərdən 13 nəfərinə ilkin amblator tibbi yardım göstərilib. 6 nəfər isə xəstəxanaya yerləşdirilib. Tofiq Hüseynov onlardan 3 nəfərinin vəziyyətinin daha ağır olduğunu bildirib:

"Həmin xəstələr Bakıya göndəriləcək. Digər 3 nəfərinsə bizim xəstəxanada müalicəsi davam etdiriləcək".

Bakıya göndərilən xəstələr 44 yaşlı Xatirə Səttarova, 49 yaşlı Gülnarə Muradova və 42 yaşlı Zülfiyyə Mehtiyevadır.

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liya Bayramova APA-ya deyib ki, hadisə nəticəsində xəsarət alan 19 nəfərdən 13-ü evə buraxılıb, 6 nəfərin müalicəsi stasionar qaydada davam etdirilir. Ümumilikdə, Səhiyyə Nazirliyinin Bakı və Şirvan şəhərinin 8 təcili tibbi yardım briqadası cəlb olunub.

Şirvan Şəhər İcra Hakimiyyətinin birinci müavini Samit Abıyev APA-ya açıqlamasında bildirib ki, Müdafiə Sənayesi Nazirliyinə məxsus "Telemexanika" Zavodunda hadisə qısaqapanma nəticəsində baş verib.

S.Abıyev yanğın nəticəsində dünyasını dəyişən şəxsin ailəsinə maddi yardım ediləcəyini bildirib.

**Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov hazırda Azərbaycanda yoxdur. Bu barədə "Report"a İcra Hakimiyyətindən məlumat verilib.**

**Bildirilib ki, icra başçısı hazırda məzuniyyətdədir və ölkədən kənardadır:** "Mərdan Camalova baş vermiş hadisə haqda məlumat verilib. Məzuniyyətdə və xaricdə olmasına baxmayaraq, öz müavinləri və Şirvanın müvafiq qurumlarının rəhbərləri ilə əlaqə saxlayır, lazımi tapşırıqlar verir".

Qeyd edək ki, "Telemexanika" zavodu 1981-ci ildə "Sihazlar" zavodu adı altında fəaliyyətə başlayıb. 1988-ci ildə "Sihazlar" və "Sənaye avtomatikası və Telemexanika" zavodları birləşdirilərək "Sənaye avtomatikası və Telemexanika" zavodu adı altında fəaliyyət göstərib. 1991-ci ildə "Telemexanika" İstehsalat Birliyi yaradılıb. 1993-cü ildən "Telemexanika" İstehsalat Birliyi Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tərkibində olub. 2006-cı ildən "Telemexanika" zavodu Müdafiə Sənayesi Nazirliyinin tərkibində fəaliyyətini davam etdirir. "Telemexanika" zavodunun əsas fəaliyyət istiqamətləri neft sənayesi üçün sihazların istehsalı və texnoloji tərtibatların hazırlanmasıdır.

Müdafiə Sənayesi Nazirliyi Şirvandakı "Telemexanika" zavodunda baş verən yanğınla bağlı məlumat yayıb. Nazirlik bildirir ki, "Telemexanika" zavodunun sexlərinin birində yaranan qısaqapanma nəticəsində sıçrayış olub və nəticədə 20 kvadratmetr sahədə yanğın baş verib.

**❑ E.MƏMMƏDƏLİYEV**
***Fotolar müəllifindir***
***Bakı-Şirvan***

YENİ MÜSAVAT
N 146 (6174) 7 iyul 2015



# Yunanıstanın ibrətlik halı

Xalid KAZIMLI

**Siyasətə atıldığı qısa müddət ərzində xalqın etimadını qazanaraq, həlledici səs toplayaraq hakimiyyətə gəlmək, dövləti idarə etmək hüququ qazanmaq hələ yaxşı, uğurlu siyasətçi olmaq demək deyil.**

Yaxşı siyasətçi odur ki, əldə etdiyi hakimiyyəti xalqının, dövlətinin mənafeyi naminə istifadə edə bilsin, onu ağ günə çıxarsın, bunu az vaxtda bacarmasa belə, heç olmasa, xalqının vəziyyətini ağırlaşdırmasın.

Yunanıstanın çiçəyi burnunda baş naziri Aleksis Sipras *(türkcə desək, Çipras, rusca - Tsipras)* dünənə qədər uğurlu siyasətçi sayıla bilərdisə, bu gün o cür səciyyələndirilə bilməz.

Adam ölkəsini uçurumun kənarına gətirib, Yunanıstanın və onun özünün düşəcəyi girdabın dibi isə görünmür.

Əslində Yunanıstanın bu günə düşməsinin başlıca günahkarı yeni baş nazir deyil. Ondan əvvəl ölkəni idarə edənlər öz səriştəsizlikləri, tamahkarlıqları, tənbəllikləri, korafəhmlilikləri ilə dünya mədəniyyətinin beşiyi olan ölkəni yavaş-yavaş bu duruma gətiriblər.

Sipras isə gəlib ölkənin can verməkdə olan iqtisadiyyatına yiyə durub və vəziyyətdən çıxmaq üçün məsuliyyəti xalqla bölüşərək addımlar atır, çabalayır, özünü sağa-sola çırpır.

İndilikdə Siprasın addımları daha çox populist xarakterlidir. O, Avropa Birliyinə cəbhə açmaqla bəlkə müvəqqəti olaraq xalqın gözündə qəhrəman olacaq, amma bu avantüranın sonunun necə olacağını, belə görünür ki, özü də bilmir.

Hazırda Sipras Avropaya qarşı getməklə Rusiyanın təbii müttəfiqidir və özü də ağır durumda olan bu ölkədən aşağı faizli kredit, bonus, ənam alacağına ümid edir, ancaq çökməkdə olan Rusiya iqtisadiyyatının Yunanıstanın xilası üçün atacağı xilasedici kəmər saman çöpündən başqa bir şey olmayacaq.

Avropa isə Yunanıstanın son referendumda 61 faizlə verdiyi qərarı heyrətlə qarşılayıb. Bir ölkəyə bu qədər yardım olunsun, ancaq o, yardım edənlərə, onu vəziyyətdən çıxarmaq istəyənlərə dirsək göstərsin. Belə bir nankorluq hadisəsi son 70 ildə Avropada baş verməyib.

Söhbət 240 milyard dollardan gedir. Yunanıstan hökuməti bu qədər pulu alıb, xərclədiyini xərcləyib, yediyini yeyib, dağıdıb, indi isə onu nəinki geri qaytarmağı düşünmür, hətta daha çox pul istəyir - həm də sonradan qaytarmamaq şərtilə.

Sanki Yunanıstan ərköyün övlad, Avropa isə varlı valideyndir və o, şıltaq balasının xərclərinə, israfçılığına sona qədər dözməlidir.

Bu dövlətin vətəndaşlarının ifrat tənbəlliyi, müftəxorluğu barədə deyilənlərə, yazılanlara çox da vurğu salmadan, onlara başlıca arqument kimi istinad etmədən demək olar ki, Yunanıstan digər Avropa ölkələrindən fərqli olaraq bu sayaq pis durumda olmasının səbəbi gerçəkdən də daxili problemləri ilə bağlıdır.

25 il öncə sosialist düşərgəsindən ayrılan Şərqi Avropa ölkələri - Polşa, Çexiya, Macarıstan, Serbiya, Rumıniya öz iqtisadi problemlərini pis-yaxşı həll edib, öz xalqlarını böyük ölçüdə sabit rifaha qovuşdurublar. Hətta Xorvatiya, Sloveniya, Çernoqoriya və Makedoniya kimi ölkələr də başlarını dolandıra bilirlər.

Adını çəkdiyimiz ölkələrin təbii resurslar baxımından Yunanıstandan elə bir fərqləri yoxdur, əksinə, turizm imkanları baxımından ondan geridədirlər. Fəqət Yunanıstan Avropanın turizm mərkəzinə çevrilməklə milyardlar qazana biləcəyi halda bu sektorunu da axsadır, nəticədə İspaniya, İtaliya və Türkiyəyə uduzur.

Yunanıstanın aqibəti göstərir ki, korrupsiya və səriştəsizlik bir ölkəni hansı fəlakətlərlə üzləşdirə bilər. İqtisadiyyatın doğru-dürüst mexanizmlər üzərində qurulmaması əvvəl-axır öz acı fəsadlarını verir. Heç bir ölkə kreditlərlə, qonşudan sinidə gələn xörək payıyla dolana bilməz.

Bizim kimi ölkələr Nigeriya kimi neft ölkəsinin acınacaqlı durumuna, Yunanıstan kimi qeyri-neft ölkəsinin hazırkı halına baxıb öz dərsini götürməli, 10-15, hətta 20 il sonrakı güzəranını fikirləşərək indidən başına çarə qılmalıdır.

# Müdafiə naziri Baltikyanı ölkələrə niyə getmişdi?

## Rusiyanın müstəqil ölkələri hədələməsi ilə Litva və Latviyaya edilən səfərin bir vaxta düşməsinə MN aydınlıq gətirdi

**Ötən həftə Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin Baltikyanı ölkələrə - Litva və Latviyaya səfərləri diqqət çəkdi. Bir tərəfdən bu səfərin NATO-nun iki ölkəsini əhatə etməsi marağa səbəb oldusa, digər tərəfdən Rusiyadan Baltikyanı ölkələrə ünvanlanmış hədə, təhdid bəyanatları ilə eyni vaxta təsadüf etməsi müzakirələrə səbəb oldu.**



Xatırladaq ki, elə ötən həftə yayılan xəbərlərə görə, "Vahid Rusiya" Partiyasının üzvü olan bir neçə deputatın baş prokuror Yuri Çaykaya göndərdiyi müraciətdə 1991-ci ildə SSRİ Dövlət Şurası yaradılmasının qeyri-konstitusion olduğu bildirilib. Müraciətdə həmin Dövlət Şurasının qərarı əsasında Baltikyanı ölkələrin (Litva, Latviya və Estoniya) müstəqilliyinin tanınmasının əsassız olduğu vurğulandı və buna etiraz edildi. Hətta o da məlum oldu ki, Rusiyanın Baş Prokurorluğu SSRİ Dövlət Şurasının Baltikyanı respublikaların müstəqilliyinin tanınmasına dair qərarının "vətənə xəyanət" kimi qiymətləndirilməsinə dair müraciəti əsasında araşdırma başladıb.

Üstəlik, qalmaqallı bəyanatları ilə daim diqqət çəkən V.Jirinovski postsovet ölkələrinin ordularının ləğv olunmasının zəruriliyini iddia etdi. Onun fikrincə, sovetlərin bayrağı altından çıxan ölkələrin müstəqilliyi "qanunsuz" olduğu üçün orduları da "qanunsuz olaraq yaradılıb". Bu iddiaların fonunda Azərbaycan müdafiə nazirinin Baltikyanıya səfər etməsi təbii ki, fərqli yanaşmaları ortaya çıxarır. Qeyd edək ki, Z.Həsənov Litva səfərində Litva Hərbi Məktəbini ziyarət edib, NATO Enerji Təhlükəsizliyi Mərkəzində olub. Nazir iyulun 8-dən Latviya prezidenti vəzifələrinin icrasına başlayacaq hazırkı müdafiə naziri cənab Raymonds Veyonis ilə görüşüb. Rəsmi qarşılanma mərasimində protokola uyğun olaraq müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Hər iki ölkənin dövlət himnləri səsləndirilib. **"Bizim ikitərəfli əməkdaşlıq sahəsində yaxşı təcrübəmiz mövcuddur. Müdafiə sahəsində əməkdaşlığımızın genişləndirilməsi qarşılıqlı surətdə silahlı qüvvələrimizin möhkəmlənməsinə kömək edəcəkdir"** - deyə general-polkovnik Z.Həsənov bildirib. Cənab R.Veyonis öz növbəsində Latviyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi çərçivəsində həllinin tərəfdarı olduğunu xüsusi qeyd edib. Sonra Cənubi Qafqaz regionunda hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlı qaçqın və məcburi köçkünlərin durumu, Azərbaycanla Latviya arasında qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Görüşdə Latviya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Raimonds Qraube iştirak edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı nazirin səfərinin Rusiyanın son hədələri ilə əlaqədar olması barədə iddialara cavabında "Yeni Müsavat"a bunları bildirdi: **"Müdafiə nazirinin Baltikyanı ölkələrə səfərləri qabaqcadan planlaşdırılmışdı. Bu planlaşdırma xeyli əvvəl olub. Keçirilən görüşlər, məqsəd və məramla bağlı da ətraflı məlumatlar yayımışıq".**

❑ Cavid TURAN

# Ermənistan "narıncı inqilab"a doğru gedir?

## Düşmən ölkədəki proseslərin arxasında beynəlxalq güclərin dayanması iddiası var;

## Qabil Hüseynli: "Rusiya tədbirlər görəcək"

**Ermənistanda yarım aydan çoxdur davam edən etiraz aksiyaları səngimək bilmir. İyunun 20-dən etibarən başlayan etiraz aksiyasının əhatə dairəsi getdikcə artmaqdadır. Artıq düşmən ölkədə baş verənlərin "narıncı inqilab"la nəticələnəcəyi söz-söhbətləri gəzməkdədir.**

Bəzi ekspertlər hesab edirlər ki, aksiyaların bu qədər davamlı olmasının arxasında beynəlxalq güclər dayanır. Erməni hakimiyyətinin mülayim davranışları bu versiyanı daha da gücləndirir. Xalqın dirəniş göstərməsi də bir çox suallar yaradır.

**Politoloq Qabil Hüseynli** Ermənistandakı aksiyaların "narıncı inqilab"la əlaqələndirilməsinin əleyhinədir. O hesab edir ki, aksiyanın tələbləri sosial xarakter daşıyır: "Açığı, bu aksiyanı "narıncı inqilab"la əlaqələndirməyə çətinlik çəkirəm. Çünki hədəflərində demokratiya, insan haqları, avtoritar rejimlərdən imtina və bu kimi tələblər yoxdur. Amma "narıncı inqilab"ın tələbləri daha çox bunlardan ibarətdir. İrəvanda hələ ki sosial xarakterli tələblər irəli sürülüb. Burada sosial ədalətin təmin edilməsi, oliqarxlardan ölkənin təmizlənməsi, xüsusilə Qarabağ klanına qarşı şüarlardan daha çox istifadə olunur. Bir dəfə Avropa Birliyinin bayrağını meydana gətirdilər. Onu da fitlə qarşıladılar. Məqsədləri Avropa Birliyi və Qərb demokratiyası olduğunu büruzə verməməkdir. Qarşılarına məqsəd qoyublar ki, mövcud rejimi dəyişsinlər. Bu rejim dedikdə Qarabağ klanını nəzərdə tuturlar. Bir də mövcud rejimlə yanaşı, sosial həyat səviyyəsinin yüksəldilməsini daha çox ön plana çəkirlər. İnqilabların xarakteri belədir ki, əgər inqilab böyüyürsə, sıralarına yeni-yeni adamlar qoşularsa, hərəkətverici qüvvələrinin sayı rəngarəng olmağa başlayarsa, təbii ki, o zaman tələblərin sayı da çoxalır. O dalğada demokratik şüarlar irəli sürülə, "məxməri inqilab"a doğru proseslər başlaya bilər. Amma bu gün "məxməri inqilab"ın şüar, tələbləri İrəvanda ayağa qalxmış insanların irəli sürdüyü tələblər-



Qabil Hüseynli

də özünü göstərmir. Buna görə də hələ ki bu aksiyalara Sərkisyan rejiminə qarşı yönəlmiş etiraz nümayişləri, onu devirməyi qarşılarına məqsəd qoymuş aksiya kimi baxmaq lazımdır".

**Qabil Hüseynli aksiyaların arxasında beynəlxalq güclərin dayanması versiyasına da aydınlıq gətirdi:** "Beynəlxalq güclər dayansaydı, Avropa Birliyinin bayrağını qabartmazdılar. Beynəlxalq güclərdən bölgədə ən təsirlisi Rusiyadır. Qonşu ölkə bu güclərin arxasında dayanır, bu prosesi müəyyən həddə qədər aparır, Sərkisyana müəyyən qorxu, çəkinməyə bənzər olay yaşadır. Sonradan proseslərə "geriyə dön" əmri verir. Bunlar ehtimallarımdır. Amma bu proseslər beynəlxalq güclərin təsiri altında olsaydı, o, maliyyələşdirilərdi. Bu zaman isə qərargah yaradılardı, ətrafında müəyyən adamlar oturub prosesləri idarə edərdilər. Mən bu əlamətləri görmürəm. Amma prosesin kənardan Rusiya tərəfindən ciddi şəkildə müşahidə edildiyini, prosesin bütün məqamlarının Rusiya tərəfindən diqqətə alındığını cəsarətlə söyləmək olar. Bəlli ana qədər prosesləri nəzarətdə saxlayacaq. Sonra proseslərin tam nəzarətindən çıxmaması üçün Rusiya tədbirlər görəcək".

**Politoloq ermənilərin aksiyalarda dözüm, iradə, güc göstərmələrinin səbəblərindən də söz açdı:** "Xalq çox bezib. Onlar dəfələrlə ayağa qalxıblar. Bir dəfə Sərkisyan seçiləndə ciddi şəkildə qalxdı. Məlum Rusiya qrupu tərəfindən dağıdıldı. Bəzi rəqəmlərə görə 50, bəzilərinə görə isə 31 nəfər öldürüldü. Xeyli sayda insan da yaralandı. Bundan sonra da dəfələrlə nümayişlər olub. Ya imkan verilib, ya da dağıdılıb. İndi isə əhali acdır, səfalət içərisindədir. İşsizlik baş alıb gedir. Erməniləri əsas sarsıdan odur ki, iş adamları, vəzifə başında olanlar, prezident Qarabağdan gəlmə şəxslərdir. Komandirlər bu gün nazirdir. Əlinə silah alıb azərbaycanlıları qıranlar ya iş adamı, ya da hansısa dövlət vəzifəsindədirlər. Bax bunlar əhalidə nifrət yaradır. Bu nifrət də hazırda baş verən hadisələrin hərəkətverici qüvvələrindən biridir".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 146 (6174) 7 iyul 2015






# Ümid Partiyasında kitab təqdimatı keçirildi

**İyulun 6-da Ümid Partiyasının akt zalında İsveçdə yaşayan soydaşımız, yazıçı Eluca Atalının son aylar Türkiyədə çap olunan "Atlara kurşun sıkmayın" və "Azadlıq hekayələri" adlı kitablarının təqdimatı keçirilib.**





Tədbiri giriş sözü ilə açan Ümid Partiyasının ictimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini Rüfət Muradlı Eluca Atalının yaradıcılığı, onun son illər Bütöv Azərbaycan mövzusunda qələmə aldığı əsərlər, eyni zamanda həyat yoldaşı tanınmış siyasi mühacir Babək Azadla birgə Güney Azərbaycan problemlərini daim AzadTV kanalında əks etdirmələrinə toxunaraq İsveçdəki soydaşlarımızın fəaliyyəti və Eluca Atalının çalışmaları xüsusunda danışmaq üçün ilk sözü Bakıda səfərdə olan Güney Azərbaycan Konqresinin sədri Abdulla Əmir Haşimi Cavanşirə verdi. Abdulla bəy Güney Azərbaycan məsələsinə öz əsərlərində önəm verən Eluca Atalıya uğurlar diləyərək, İsveçdə fəaliyyət göstərən Azərbaycan Diasporasının son dönəmdəki çalışmalarına diqqət çəkdi. Sonra çıxış üçün söz kitabların redaktoru Əntiqə Qonaqlıya verildi. Əntiqə xanım kitablar haqqında məlumat verib Türkiyənin ayrı-ayrı şəhərlərində, o cümlədən İstanbul, Canaqqala, İzmir, Kayseri, Bursa ve Ankarada baş tutan təqdimat mərasimlərinə işarə edərək kitabların bütün Türk Dünyasında da rəğbət qazanacağına ümid etdiyini bildirdi. Daha sonra kitablarla bağlı tədbir iştirakçılarının çıxışları eşidildi. Çıxış edənlər Ümid Partiyası Ali Məclisinin sədri Rəfael Tağızadə, Asif Ata Ocağının təmsilçisi Elli Atayurd, AMEA-nın əməkdaşı, yazıçı Yədullah Kənani, Türkiyədən folklorşünas alim Oğuz Doğan, filosof-alim Faiq Ələkbərov, DAK İH-nin üzvü Babək Muğanlı, daha sonar ictimai fəal Sədaqet İsmayılova, yazar Telman Oğuzyurd, yazıçının müəllimi Təbiət Abdullayeva Eluca Atalı yaradıcılığı və kitabları haqda fikirlərini paylaşdılar. Bədii qiraətçi Ülkər Piriyeva isə yazıçının hekayəsini mərasim iştirakçıları üçün qiraət etdi. Daha sonra söz alan müəllif iştirakçılara və Ümid Partiyasına təşəkkür edərək öz yaradıcılığının süjet xətti, müraciət etdiyi mövzuların səbəbləri, özəlliklə Urmu Gölü faciəsi və Güneydəki olaylar haqda fikrini söylədi. Eluca Atalı habelə istər "Atlara kurşun sıkmayın", istərsə də "Azadlıq hekayələri" kitablarında Güney Azərbaycandakı soydaşlarımızın durumu, mühacirət səbəbləri, xomeynizmin mahiyyəti, azadlığın və azad insanın önəmi haqda da mərasim iştirakçıları ilə düşüncələrini bölüşdü.Təqdimat mərasimi yazıçının kitablarının imzalanması və kitabdakılar haqda suallarla davam etdi. Tədbirin sonunda iştirakçılar son günler Doğu Türküstanda baş verən faciəyə də öz etirazlarını bildirərək orada baş verən insanlığa zidd olayları qınadılar.



# İqbal Ağazadə Güney Azərbaycan Konqresinin sədri ilə görüşdü

**İyulun 6-da Ümid Partiyasının mərkəzi qərargahında partiyanın sədri, millət vəkili İqbal Ağazadə mərkəzi İsveçdə yerləşən Güney Azərbaycan Konqresinin sədri Abdulla Əmir Haşimi Cavanşirlə görüşüb. Partiya sədrinin ictimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini Rüfət Muradlının da iştirak etdiyi görüşdə Avropadakı soydaşlarımızın diaspora fəaliyyətləri haqda düşüncələrini bölüşən İqbal Ağazadə son günlər Abdulla Əmir Haşiminin başçılıq etdiyi digər qurum olan "İsveç Qarabağ Cəmiyyətinin "Azərbaycan adına həyata keçirdiyi görüş və tədbirlərə görə təşəkkürünü bildirib, dövlətçiliyimiz yolundakı çalışmalarında istər Güney Azərbaycan Konqresinə, istərsə də Qarabağ Cəmiyyətinə uğurlar diləyib. Səmimi keçən görüşdə Güney Azərbaycan məsələsinə diqqət və həssaslığına görə Ümid Partiyasına və İqbal Ağazadəyə təşəkkürünü bildirən Abdulla Əmir Haşimi Cavanşir görüşün sonunda qarşıdakı parlament seçkilərində Ümid Partiyasına da uğurlar diləyib.**



**Bəlkə də bu yazdıqlarımı oxuyan insanlar düşünər ki, bu adi bir mövzudur və bu haqda kifayət qədər danışılıb. Lakin belə düşünmürəm, bu mövzuya daha da çox vaxt ayırmaq lazımdır. Azərbaycanda qızlarımız nədən əziyyət çəkir? Onların ürəyində olan hisslərə toxunan olub? Onların nə yaşadıqlarını və daxilən necə əzab çəkdiklərini bilən olub? Bu gün onların adından mən yazmaq qərarına gəldim. Hazırda Azərbaycanda öz hüquqları varkən, öz hüquqlarına sahib çıxa bilməyən qızlarımız var.**

**Aysel TÜRKAN (QULİYEVA)**
**Ümid Partiyası Gənclər Təşkilatının üzvü**



# Azadlıq ürəyin istədiyini etmək deyil...

## ...Azadlıq haqqın olanı əldə etməkdir"

Bunun birinci səbəbi ailədə öncə psixoloji cəhətdən təməlin yaxşı qoyulmamasıdır. Uşaqlıqda ana və atadan yetərincə sevgi görməyən qızlar ömür boyu o, sevgini başqalarında axtarırlar, halbuki bəzən tapa bilmirlər. Elə bir sevgidən susuzdurlar ki... Səhrada susamaq və su axtarmaq kimi bir şey... Çarəsizcə uşaqlıqda atasının gözlərini güdən qızlarımız var ki, bəlkə bu gün sevgi dolu baxar... Sevgisini bəlli edər deyə fikirləşən gözlər... Yer üzündə düşünürəm ki, pis qadın yoxdur sadəcə əzablardan yorulan və qatilə dönən qadınlarımız var...

Qadın zərif olsa da güclü və məğlub edilməz varlıqdır. Sadəcə susqun baxışlar və daim axtardığı qayğı var. Axı hər zaman ətrafa qayğı səpələyir özü... Danışarkən belə susaraq öz baxışları ilə istəklərini gizlədən qızlarımız var. Hər günü yuxudan qalxaraq başlayan amma bu günü yola vermək, bitirmək xatirinə yaşayan qızlarımız var. Həyatda bir var ki, insan məcbur olduğu üçün, bir də var sadəcə yaşamaq üçün yaşayır. Baxın, onlar məcbur olduqları üçün yaşar. Onlar rahat nəfəs almaq üçün gecələrin başlamasını və ağlamalarını gözlər. Onlar həyat eşqi ilə dolu olarkən, yaşadıqca yaradıb yaratmaq varkən sadəcə "azadlıq" haqqında düşünərlər. Yaşadıqları cəmiyyətə izah edə bilməzlər ki, azadlıq ürəyin istədiyini etmək deyil, azadlıq haqqın olanı əldə etməkdir. Onların istədiyi məhz bu azadlıqdır. Bəzən bu qızların həyat tərzi bülbülün qəfəsdə qalmasına bənzər.

Bəs nədən qorxuruq? Əlimizdə olan haqdanmı? Yoxsa heç mövcud olmayan haqdan? Bəşəriyyət qanunlarındanmı, yoxsa hakimiyyətdən? Nədən? Cavabı haqqı qoyub hər dəfəsində haqsızlığa qaçmağımızdandır... Öz hüquqlarımızı bilməməkdən... Onlara verilən dəyər böyük olmalıdır, onlara verilən dəyər ölçülməzdir. Onlar nəinki ana, cəmiyyətimizin anasıdır, təhsilli, tərbiyəli, maarifçi bir cəmiyyətin anası. Neçə- neçə dahi şəxsiyyətləri, görkəmli nümayəndələrin yetişməsində böyük əməyi olan varlıq... Bu gün cəmiyyət cahildirsə, ən böyük günah, iş məhz təhsil ala bilməyən qadınların, onları təhsildən məhrum edənlərin üzərinə düşür. Kişilər qadınlara dəstək olmalı, daim onlarla çiyin-çiyinə getməli, yol göstərməli. Çünki qadın və kişi birlikdə güclüdür. Bu cəmiyyəti onlar birlikdə xilas edəcək.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

# "90-cı illər" Günəşi və kosmosun havası



Zamin HACI
zaminhaci@gmail.com

"Şərq ölkələrində kəndlilərin Avropa və Amerikadan gələn turistləri aldadıb belə şeyləri satdıqlarını söylədi. Hətta bir dəfə ölü bir it leşinin tüklərini qırxaraq onu bir hökmdarın mumiyası adı ilə amerikalı turistə sata bilmişlər".

*(Əziz Nesin, "Sizin ölkədə eşşək yoxdurmu")*

***

Azərbaycan Milli Elmlər Akademiyasının üzvü olan alimlərimiz yenə qəlbimizi fərəhlə doldurublar. Hətta qəlbimizdə fərəhdən yer qalmayıb, imkan olsa fərəhimizin qalan hissəsini xaricə satıb bəy kefində yaşayacağıq. Hazırda AMEA Kibernetika İnstitutu elə "Qəlbə dolan fərəhin artıqlarını ixrac etməyin səmərəli üsulları metodikasının prinsipləri üzərində gəzişmələr assosiasiyası" mövzusunda ciddi araşdırma aparır, bitən kimi sizə də xəbər verəcəyəm.

Keçən ay mən bir maraqlı xəbər oxumuşdum, istərdim ondan sitatı görəsiniz: "Azərbaycan Milli Elmlər Akademiyası əməkdaşlarının maaşlarının tarif dərəcələrindən tutulan vergidə uyğunsuzluğun aradan qaldırılması üçün Nazirlər Kabinetinə müraciət edib. Vergi ödəmələrinə görə yaranan uyğunsuzluq 13 və 14-cü dərəcəli işçilərin - elmi tədqiqat institutlarının böyük elmi işçilərinin əmək haqlarının fərqlənməsinə gətirib çıxarır. 13-cü dərəcəli böyük elmı işçilərin aylıq əmək haqları 235, 14-cü dərəcəli elmi işçilərin əmək haqları 253 manat olsa da, bu uyğunsuzluğa görə 13-cü dərəcəyə aid edilən işçilər 14-cü dərəcəyə şamil edilən işçilərdən daha yüksək əmək haqqı alırlar".

Doğrudan da dəhşətli uyğunsuzluqdur. Buna görə hətta AMEA-nın şadlıq sarayına oxşayan binasına göydən fəlakət yağa bilərdi. Eyni zamanda bu xəbərdən bizdə 14-cü dərəcəli alimlərin yaşadığını öyrəndik. Açığı, mən 14-cü dərəcə qaynaqçı eşitmişdim, alimin 14-cü dərəcəsini təzə öyrəndim. Bu nəsə təzə bir şeydir. Elmin zirvəsi kimi bir rütbədir. Alim 14-cü dərəcəyə çatandan sonra artıq həqiqəti dərk edir, Kainatın yaranma sirlərindən agah olur, Hiqqs bozonunu (ən cupbulu zərrəciklərdən biri) gözüylə görür, hansı akademikə yaltaqlanmaq üçün hansı katibəyə nə almaq lazımdır, YAP-a girməyin ən münasib hava şəraiti hansı fəsildə olur və sairə hikmətləri intuitiv dərk edirmiş. 13-cü dərəcə alimlərin qarnında "Narxoz"un tələbələri kimi dəftər olsa da, 14-cü dərəcədə ümumiyyətlə yazı-pozu aradan qalxır. Yalnız şalvarın dal cibində müdirin, müvafiq akademikin ayaqqabısını silmək üçün palaz qırığı gəzdirilir.

6-8 iyul tarixlərində, yəni hal-hazırda isə Bakıda prezident yanında Elm Fondunun, AMEA Şamaxı Ramazan Rəsədxanasının təşkilatçılığı ilə "Günəşdə baş verən proseslər: Günəş tipli ulduzların dəyişkənliyi və astroseysmologiyadan kosmik havaya qədər" mövzusunda beynəlxalq elmi konfrans qayırılır. Burada Azərbaycan, Özbəkistan, Belarus və sairədən alimlər Günəşin dəyişməsini pisləyəcəklər. Doğrudan da Günəş bəzən özünü pis aparır, gah çox isti olur, gah üfüqə sallanır, qış gəlir. Halbuki Özbəkistan, Azərbaycan və Belarus kimi ölkələri 25 ildir eyni adamlar idarə edir, heç vəzifədən enmək, qürub eləmək fikirləri yoxdur, əl vuranı da yandırırlar.

Alimlərimiz sanki bunu duyduqları üçün tədbirin açılış mərasimi olduqca ilginc elmi məkanda keçirilmişdir: Şıx çimərliyində, "Aysberq" istirahət mərkəzinin plyajında! İnsafən, Günəşin həyat və yaradıcılığını qiymətləndirmək üçün ən yaxşı yer elə çimərlikdir. Yaxşı çıxış edən alimlərə su tumanı *("plavkini" dilimizə belə çevirdim, narazı qalan özünü suya atsın, nə vecimə),* qarğıdalı və şezlonq verilmişdir. Bu da onu göstərir ki, biz təkcə idman ölkəsi deyilik, bizdə elm də vardır!

Hələ siz tədbirin adına diqqət edin. Burada alimlərimiz astroloji proseslərin yerin altındakı öküzü tərpətməsinə, onun soncuqlamasına gətirməsinə toxunur, eyni zamanda kosmosda havanın yoxluğu haqda çürük nəzəriyyəni rədd edirlər. Əks halda niyə bunun adını "kosmik hava" qoyublar? Bəli, kosmosda nəinki hava var, hətta Ayın səthində Xaçmaz pomidoru becərmək mümkündür. Yaxın illərdə biz Səyavuş Novruzovun başçılığı altında kosmonavt-bostançılarımızı Ayın görünməyən tərəfinə bu məqsədlə ezam edəcəyik. Görünən tərəfdə əksək, it-qurd bostanı oğurlayar.

# "Milyarderlər İttifaqı"ındakı "kölgə fiqur" kimdi...

# "Abbas Abbasovun adamı Beynəlxalq Banka sədr gətirilir" - şok iddia

## Hakimiyyətin Rusiyadakı müxalifətinin sponsoru ilə bağlı başqa iddia da var; bankın Moskva filialının rəhbəri Fuad Abdullayevlə baş nazirin sabiq 1-ci müavinini və Vəzirov klanını hansı maraqlar bağlayır?

**Ötən saylarımızın birində Azərbaycan əsilli yəhudi oliqarx Telman İsmayılovdan ("AST Telman") torpaq alıb hotel inşa etmək istəyən Zaur İsazadə haqda bəzi yeni bilgilər vermişdik. Qeyd eləmişdik ki, Rusiya Hüquq Akademiyasının sıravi məzunu olan bu şəxs Moskvada yaşayan Əbdürrəhman Vəzirovun qardaşı qızının əridir.**



Abbas Abbasov



Fuad Abdullayev

Böyük maliyyə-biznes imperiyası qura bilmiş bu şəxsin eyni zamanda Azərbaycan Beynəlxalq Bankın Moskva filialının sədri Fuad Abdullayevin yaxın adamlarından olduğunu da diqqətə çatdırmışdıq. Onu da qeyd etmişdik ki, İsazadənin Beynəlxalq Bankın Moskva filialında yüz milyon dollarla krediti var və əksərən kreditlərin verilməsində birbaşa vasitəçilik edir.

Həmçinin Beynəlxalq Bankın Moskvada "Portofino" yaşayış kompleksinin də İsazadə tərəfindən inşa edildiyi və satıldığı vurğulanmışdı. Həmin şəxsin habelə, çoxsaylı offşor firmalarının olduğu deyilirdi. Bildirilirdi ki, Zaur İsazadə yüz milyonlarla dollar kredit götürür və üstəgəl, öz yaxın əhatəsinin kredit götürməsinə yardımçı olur.

***

**Redaksiyamıza Beynəlxalq Bankın Moskva filialının rəhbəri və ona yaxın şəxslərinin digər qaranlıq işləri barədə ilginc məlumatlar daxil olub. Söhbət bu dəfə Fuad Abdullayevin Moskvanın Lenin prospektindəki "Forto-Pyano" yaşayış kompleksi layihəsindən gedir:** "Bu layihənin inşası ilə Abdullayevin yaxın adamı - məhz həmin Zaur İsazadə məşğul olur. Azərbaycanlılar biləndə ki, Beynəlxalq Bankın Moskva filialı yaşayış kompleksi tikir, çoxları ruhlanaraq ora axışdılar ki, mənzil sahibi olsunlar. Amma üstündən kifayət qədər zaman ötsə də, müştərilər sənədləri hələ də ala bilməyiblər - yenə məhz həmin İsazadəyə görə; hansı ki, tikinti və satışa məsul şəxsdir, telefon zənglərinə isə cavab vermir. Filialın bank kreditləri şöbəsinin direktoru Fərhad Rüstəmova edilən müraciətlər də heç bir nəticə vermir".

**Mənbənin bildirdiyinə görə, bu da təəccüblü deyil, çünki:** "Fərhad Rüstəmov hazırda Azərbaycanda 10 milyon manatlıq krediti qaytarmadığı üçün həbsə salınan Nadir Abbasovun qızının əridir. Nadir Abbasov baş nazirin keçmiş 1-ci müavini Abbas Abbasovun doğma qardaşıdır. İndi necə olur, qayınata həbsdədir, yeznə isə Moskvada lazım bildiyi adamlara kredit paylayır? Moskvada Fuad Abdullayevin özünə düşmək isə qeyri-mümkün işdir. Diasporda söz-söhbət gəzir ki, onu Cahangir Hacıyevin yerinə gətirmək istəyirlər".

**Məlumatlara görə, bankın mövcudluğu ərzində onun qapıları azərbaycanlıların üzünə həmişə bağlı olub.** "Bankın Moskva filialından kredit götürmək fantastika kateqoriyasına aid bir məsələdir, kiməsə bu müyəssər olubsa da, onlar kreditin əvəzində 10-15 faiz həcmində pul veriblər. Hər dəfə diasporaya pul lazım olan məqamda Fuad Abdullayevə ağız açmağın faydası olmayıb və ümumiyyətlə, onun yanına düşmək belə mümkün deyil. Bizim hörmət elədiyimiz şəxs, sədrin məsləhətçisi olan Azər Səfərov vəzifədən gedəndən sonra isə diasporla bankın əlaqələri birdəfəlik kəsilib" - qaynaq bildirir.

**Abdullayevin diasporaya laqeyd münasibətini bu faktdan da görmək olar:** ""Taşir" özəl şirkətlər qrupunun erməni sahibi Rusiyadakı erməni diasporuna dəstək verir, iri tədbirlər təşkil edir. Beynəlxalq Bankın Moskva filialının mövcudluğu ərzində isə bank yerli diasporla hər hansı əməkdaşlıqdan daima qaçıb. Mənbə bunu da təəccüblü saymır, çünki sözügedən bank flialı əslində "Azərbaycana, azərbaycanlılara deyil, Vəzirov-Abbasov klanına məxsus bankdır".

**Abdullayevin Moskvada var-dövləti barədə də əfsanələr gəzdiyi bildirilir:** "Onu yəqin ki, Rusiyada tanınmamış azərbaycanlı oliqarx hesab eləmək olar. Nədənsə həmişə Azərbaycan hakimiyyətinin Moskvadakı müxalifəti sayılan "Milyarderlər İttifaqı"nın sponsorunun kim olması axtarılır. Bəlkə bütün bunlarda da elə Abdullayev və onun yaxın ətrafının əli var? Bu barədə bir çoxunun yaxşı-yaxşı düşünməsinə dəyər. Beynəlxalq Bankın Moskva filialının fəaliyyətinə bütün bu illər ərzində hətta səfirliyimizin göz yumması da maraqlı məsələlərdəndir".

Xatırladaq ki, Rusiyadakı səfir Polad Bülbüloğlu ilə Abbas Abbasovun sıcaq münasibətlərdə olması, hətta səfirin ondan asılı vəziyyətə düşməsi barədə məlumatlar, "Azer-Ros"un hazırkı prezidenti Söyün Sadıqovun dilindən "onlar eyni qayıqdadırlar" kimi ittihamedici iddialar səslənib və Bülbüloğlu tərəfindən bu günədək təkzib edilməyib.

❑ **Siyasət şöbəsi**

# Azərbaycan masonlarının Rusiyadan idarə olunduğu üzə çıxdı

**Moskvada rəsmən tanınmış mason təşkilatının - Böyük Rusiya Lojasının yaradılmasının 20 illiyi qeyd olunub. Virtualaz.org saytı xəbər verir ki, bu qapalı təşkilatın toplantısı barədə bəzi məlumatları "V kurse" portalı əldə edə bilib. Mərasimə onlarla ölkədən mason təşkilatlarının - Böyük Lojaların rəhbərlərinin qatıldığı bildirilir.**





Toplantı qapalı olsa da iştirakçılardan biri, Mason Ordeninə mənsub olduğunu gizlətməyən rusiyalı siyasətçi Andrey Boqdanov bəzi məlumatları və fotoşəkilləri sosial şəbəkələrdə yerləşdirib. Həmçinin digər mason mənbələrindən əldə edilən xəbərlərə görə, Moskvadakı toplantıya dünyanın hər yerindən yüzlərlə Orden nümayəndəsi qatılmışdı. Qonaqların arasında Fransa, İsveçrə, ABŞ, Avstriya, Gürcüstan, Moldova, Ermənistan, İsrail, Latviya, Malta, Rumıniya və digər ölkələrin, habelə Qabon, Cibuti və Mavrika kimi cırtdan ölkələrin masonları olub. Portalın əldə etdiyi məlumata görə, iştirakçıların arasında dünya masonluğunun bir çox liderləri, o cümlədən Fransanın Böyük Milli Lojasının Böyük Ustadı Jan Pyer Servel, Avstriya Böyük Lojasının Böyük Ustadı Corc Semler, Böyük Lojaların Ümumdünya Konfransının icraçı katibi Tomas Cekson və digərləri də yer alıblar.

Belə görünür ki, Qərblə Rusiya arasında gərginlik və qarşılıqlı sanksiyalar masonluğa təsir etməmişdi.

Toplantıda Rusiya Böyük Lojasına Böyük Ustadın seçilməsinə dair səsvermə keçirilib. Rus masonların qərarı ilə Böyük Rusiya Lojasına yaxın 5 ildə Andrey Boqdanov rəhbərlik edəcək. Həmçinin mason təşkilatının rəhbərliyinə vəzifəli şəxslərin - Böyük Zabitlərin seçkisi həyata keçirilib.

Bundan əlavə, məlum olub ki, Rusiya masonları Ermənistan, Gürcüstan və Azərbaycanın Böyük Lojalarının da təsisçiləridir. Yəni hər üç Cənubi Qafqaz ölkəsinin masonları Rusiyadan idarə olunurmuş.

Toplantıda bildirilib ki, Rusiya Böyük Lojası Qazaxıstan, Belarus və Qırğızıstanda da Böyük Lojalar təsis etməyə hazırlaşır.

Masonluğun tarixi XVIII əsrə dayanır. Bu dini-mənəvi hərəkat XVIII əsrin əvvəllərində Böyük Britaniyada yaranıb. Masonların ilk lojası olan Böyük Loja da 1717-ci ildə Londonda yaradılıb. Masonların Böyük Fransa inqilabına hazırlıqda böyük rolu olub.

Katolikliyin yayğın olduğu ölkələrdə masonlar təqiblərə məruz qalıb. İtaliya, İspaniya və katolikliyin mövcud olduğu digər ölkələrdə liberal partiyaları "mason partiyaları" adlandırıblar.

Dünyanı gizli mason təşkilatlarının idarə etdiyinə dair əfsanələr bütün dövrlərdə populyar olub və indi də belə qalmaqdadır.

YENİ MÜSAVAT
N 146 (6174) 7 iyul 2015

# Qərb-Rusiya qarşıdurması daha da dərinləşdi

**Yunanıstanda iyulun 5-də keçirilən referendumda iştirak edənlərin 61 faizdən çoxu beynəlxalq kreditorların təqdim etdiyi iqtisadi qənaət proqramına "yox" deyib və ölkə növbəti dəfə iqtisadi fəlakət həddinə gəlib. 2008-ci ildən bu yana iqtisadi böhran girdabında boğulan Yunanıstanda bu ilin yanvarında "Syriza" Partiyasının rəhbərlik etdiyi radikal solçu qüvvələr hakimiyyətə gəlib. Yunanıstanın yeni baş naziri Aleksis Tsipras (Sipras) dərhal avrozonaya "müharibə" açaraq xarici borcları ödəməyəcəyini açıqladı. Yunanıstanın baş naziri bəyan etdi ki, beynəlxalq kreditorlar ölkənin 323 milyard avro borcunun bir hissəsini silməli və sərt iqtisadi qənaət tədbirlərinə dair tələblərini geri çəkib borc verməyi davam etdirməlidir.**




# Yunanıstanı bitirən ən əsas səbəb: "Kremllə dostluq..."

## Ölkə maliyyə böhranından bu vəziyyətə düşsə də, onun indiki çöküşü daha çox siyasi səbəblərə bağlıdır; bu, Rusiya ilə təhlükəli həddə yaxınlıq edən digər ölkələr üçün də bir xəbərdarlıq sayılmalıdır; Kremlin ağuşundakı Ermənistanda Avropa Birliyinin bayraqlarının dalğalanması bəlkə də bu prosesin başlanğıcıdır...

Yunanıstanın yeni hakimiyyətinin "oğru qanunları" psixologiyası ilə davranması, hətta rəsmi tədbirlərdə belə qalstuk taxmayan baş nazirin Kremlin maliyyə dəstəyi ilə iqtidara gəldiyi barədə hələ ilin əvvəlində danışılmağa başlanmışdı. Aleksis Siprasın komandası 2010 və 2012-ci illərdə Beynəlxalq Valyuta Fondu, Avropa Mərkəzi Bankı və Avropa Komissiyasından kredit yardımı alan Yunanıstana yeni maliyyə dəstəyi almaq niyyətində idi. BVF-yə ödənilməli olan 1.5 mlrd. avronun müddəti iyun ayının 30-da başa çatdığından, Avropa Birliyi üzvləri danışıqlar prosesində Afinaya kredit yardımının üçüncü mərhələsinin şərtlərini açıqladı. Əsas şərtlər vergi sektorunda və sosial sahədə islahatların aparılması idi. Sipras isə bu şərtləri qəbul etmədiyini bəyanladı və Avropa Birliyini şantajda günahlandırdı. Beləliklə, Yunanıstan 2015-ci ilin 30 iyununda ödəməli olduğu 1.5 mlrd. avronun ödənişini təxirə saldı, ölkədə bankların fəaliyyəti iyul ayının 7-dək dayandırıldı, bankomatlardan çıxarılacaq məbləğ 60 avroyadək məhdudlaşdırıldı və ölkənin qarşısında qoyulmuş şərtlərə münasibətin bildirilməsi iyulun 5-nə təyin edilmiş referendumla xalqın ixtiyarına buraxıldı.

Solçu yunan hökumətinin özünəarxayınlığı bununla da yekunlaşmırdı. Sipras Qərbin sanksiyaları ilə təklənmiş Rusiyaya borcunu qaytarmağa başladı. Sipras Avropa Birliyi liderlərinin iradəsinə zidd olaraq Moskvaya səfər edərək, Vladimir Putinlə görüşdü. Sipras maddi çətinlik çəkən Yunanıstana Putindən kredit, həmçinin Rusiyanın Avropa Birliyi ölkələrinə tətbiq etdiyi sanksiyanın Afina üçün götürülməsini istəyirdi. Sipras eyni zamanda qaz tədarükündə Afinaya endirim edilməsini də arzulayırdı. Putin isə Avropa Birliyinin "parçalandığı"na sevinərək "Yunanıstan kartı"ndan təkcə qəzəbli olduğu Avropa liderlərinə qarşı deyil, bütün dünyaya qarşı oynamağa başladı.

Yunanıstanın qaz kəmərləri üçün strateji mövqeyindən istifadə edən Rusiya öncə Azərbaycanın da içərisində olduğu Trans-Adriatik Qaz Kəmərini (TAP) əngəlləməyə başladı. Qeyd edək ki, TAP layihəsi "Şahdəniz-2" yatağındakı qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. Üstəlik, Yunanıstan hökumətinin ölkənin qaz kəmərləri sisteminin operatoru olan DESFA şirkətinin səhmlərinin 66 faizinin SOCAR-a satışına dair 2013-cü ildə imzalanmış müqaviləni pozacağını bəyan edərək Azərbaycan hökuməti ilə ultimativ dildə danışmağa başladı. Sipras hökuməti bəyan etdi ki, DESFA-nın səhmlərinin 66 faizini yox, 49 faizini SOCAR-a sata bilər. Aydın idi ki, bu qərarda da Rusiyanın barmağı var idi. Çünki Yunanıstan DESFA-nın özəlləşdirməyə çıxarılmasından sonra bu şirkətlər uğrunda SOCAR-la bərabər "Qazprom" şirkəti arasında kəskin rəqabət vardı. Azərbaycan bu rəqabətdə Rusiyanı qıcıqlandırmamaq üçün o qədər də maraqlı deyildi, amma Avropa Birliyi Yunanıstanın o vaxtkı hökumətinə DESFA-nın məhz SOCAR-a verilməsi üçün ciddi təzyiq edirdi. "Qazprom" nəticəni bildiyindən son anda tenderdən çəkildi və oyundan kənarda qaldı. Bu məğlubiyyət isə Putini şübhəsiz ki, bərk sarsıtmışdı. Əlbəttə, bu müqavilənin maliyyəti nəhəng şirkətlər üçün qəpik-quruş olsa da, Azərbaycan və Qərb üçün önəmli idi. Qeyd edək ki, bu müqavilənin imzalanmamasında Avropa Birliyinin də müəyyən rolu var. SOCAR-la DESFA arasında müqavilə bir neçə aydır ki, Avropa Komissiyasının Antiinhisar Komitəsində ləngidilir və Azərbaycan tərəfi bununla bağlı bir neçə dəfə etirazını bildirib. Avropa Birliyinin bu ləngiməsinin səbəbləri sırasında rəsmi Bakının Rusiya ilə münasibətlərinin son aylar yaxınlaşması da var...

Ukrayna böhranından sonra Qərblə müharibə həddinə gələn Rusiya özünə "cəhənnəmə gedən yoldaş" axtarır. Yunanıstan hökumətinin ötən ayın sonunda Sankt-Peterburqda Rusiya qazının "Türk axını" qaz kəməri ilə nəqli ilə bağlı memorandum imzalaması isə artıq Avropa Birliyinin bütün siyasətinə tüpürmək idi. Yunanıstanın energetika naziri borc üçün dirəndikləri Avropa liderlərini sakitləşdirmək üçün bəyan etdi ki, müqavilə Avropa Birliyinə qarşı yönəlməyib. Qərbin cidd-cəhdlə əngəllədiyi, hətta bu layihədə yer almaq istəyən bir neçə Balkan ölkəsinin *(məsələn, Makedoniyanın)* hökumətlərinə qarşı çevriliş planlarını işə salması bu məsələdə necə qətiyyətli olduğunu göstərir. Yunanıstan hökuməti bu memorandumla Rusiya ilə "cəhənnəmə gedən yolunu" rəsmiləşdirdi. Qərb, xüsusilə Avropada indi xeyli fəallaşmış Amerika bu cür xəyanətləri bağışlamır. Necə ki, Rusiya keçmiş SSRİ respublikalarında Qərbin fəallaşmasını hər cür vasitələrlə, hətta hədə və şantajla əngəlləyir, yeni işğal planları qurur.

Yunanıstandakı referendumun nəticələrini Rusiya KİV-ləri "xalqın və Siprasın qələbəsi" hesab edir. Amma aydındır ki, Kreml indiki çətin maliyyə durumunda Yunanıstanı yanına çəkib dirçəltmək gücündə deyil. Ən əsas Yunanıstan Putinə Avropa Birliyinə üzv olduğu üçün maraqlı və cəlbedicidir. Əgər Afinanı bu qurumdan çıxarsalar, Kreml də Yunanıstana sahib çıxmayacaq, ən yaxşı halda onu Avrasiya Birliyinə və ya ŞORS-a daxil edəcək... Amma Siprasın "Biz təlatümlər içində yaşayırıq bu gün. Dəniz ölkəsi olduğumuzdan buna alışmışıq. Ancaq bir dəniz ölkəsi olaraq biz daha təhlükəsiz limanlar axtarışına çıxmışıq", - bəyanatını da unutmaq olmaz. Çünki Yunanıstanın "Avropa evi"ndən qovulması Avropa Birliyinin cənub sərhədlərində qüvvələr nisbətinin Rusiyanın xeyrinə dəyişilməsinə gətirib çıxara bilər.

Referendumun ilkin nəticələrinin açıqlanmasından dərhal sonra Almaniya kansleri ilə Fransa prezidenti arasında telefon danışıqları olub. Merkel və Olland bu gün- iyulun 7-də Avropa Birliyinin fövqəladə sammitini çağırmağı qərara alıblar.

Avropa Birliyi liderlərinin iqtisadi böhrandan çıxa bilməyən Yunanıstan xalqı ilə heç bir düşmənçiliyi yoxdur. Avrozonanın öz iqtisadi şərtləri var və buna uyğunlaşmaq lazımdır. Amma Yunanıstanın baş naziri təkcə Avropa Birliyinin kredit şərtlərinə əməl etməmək hədəfə gəlməyib, o həm də indiki məqamda kürəyini Kremlə söykəyərək Avropa Birliyinə arxadan zərbə vurub və bunun cəzasını almalıdır. Referendumun nəticələrini "Yunanıstan və Avropa üçün tarixi səhv" adlandıran Sipras hökumətinin əsas fiquru-maliyyə naziri Antonias Samaras artıq istefa verib. Bu, yanvar ayından bəri hökumətdə ilk istefadır və böyük ehtimalla davamı da olacaq.

Məlumatlara görə, Almaniya kansleri Angela Merkelin yunan baş nazirini görməyə gözü yoxdur və Yunanıstanın avrozonadan qovulmasında israr edir. Fransa prezidenti Fransua Olland isə daha yumşaq mövqedədir və Afina ilə danışıqların davam etdirilməsinə tərəfdardır.

Yunanıstan maliyyə səbəbindən bu vəziyyətə düşsə də, onun indiki çöküşü daha çox siyasi səbəblərə bağlıdır. Bu, həm də Rusiya ilə təhlükəli həddə yaxınlıq edən digər ölkələr üçün də bir xəbərdarlıq sayılmalıdır. Rusiyanın ağuşundakı Ermənistanda Avropa Birliyinin bayraqlarının dalğalanması bəlkə də bu prosesin başlanğıcıdır...

❑ **"Yeni Müsavat"**









## 88-ci ildən bu tərəfə bu qədər ümidsiz olmamışdım...

Hüseynbala SƏLİMOV

**Siyasi partiyalar sizə daha çox qocalar evini xatırladırsa, bundan elə də təəccüblənməyin, çünki bu, gerçəklikdir...**

**2000-ci il idi. Parlament seçkilərinə bir azacıq qalmışdı. Seçki ərəfəsində məndən ölkədəki siyasi mərkəzləri təhlil etməyi, bir növ seçki dövrünü azacıq da olsa, araşdırmağa cəhd göstərməyi xahiş etdilər...**

Mən də bunu etdim və o vaxt gördüm ki, ölkədəki siyasi müxalifət elə də ümidsiz vəziyyətdə deyil, hətta əksinədir, o dövr üçün müxalifət kifayət qədər güclü idi. Həmin ildəki seçkilərdə də bu, təsdiqləndi - düzdür, hakimiyyəti qələbəni etiraf etməyə vadar qoymaq və bir növ onu təsdiq etdirmək mümkün olmadı, amma müxalifət partiyalarının qələbəsi şəksiz idi...

Bunu indi sadəcə, özüm üçün etmək istədim. Amma çox ümidsiz bir vəziyyət alındı və belə bir vəziyyəti mən 1988-ci ildən bu tərəfə müşahidə etməmişdim. Ona görə də builki parlament seçkiləri haqqında danışmağa heç adamın həvəsi gəlmir. Güman edirəm ki, elə bir vəziyyət yaranıb ki, hakimiyyət seçkini hətta bütün qaydalara uyğun keçirməyə də cəhd edə bilər. Amma edəcəkmi?..

Qəribədir, müxalifətin güclü və zəif vaxtları olub. Amma hakimiyyətin güclü və özünə inamlı vaxtını görmək, deyəsən, bizə qismət olmayacaq. Onlar həmişə olduğu kimi, bu dəfə də hakimiyyətin mənbəyi kimi seçki məntəqələrini təsdiq etdirəcəklər və böyük ehtimalla həmin məntəqələrə gələn adamların kimə və necə səs verməsi, elə bir əhəmiyyət kəsb etməyəcək...

Bununla bağlı çox yazmışıq. Səbəbini araşdırmağa çalışmışıq. Belə bir qənaətə gəlmişik ki, bu hakimiyyəti təkcə müxalifət çəkindirmir, onlar həmişə olduğu kimi, ümumiyyətlə, düzgün seçki keçirməkdən, bu seçkilərdə müstəqil adamların qalib gəlməsindən ehtiyat edirlər...

Bəli, kimdəsə elə bir təsəvvür yaranmamalıdır ki, onu cəmiyyət seçib. Hamı parlamentə və yaxud bələdiyyələrə seçildiyi üçün yalnız hakimiyyətə minnətdar olmalıdır. Məsələ bundadır ki, artıq bir dəfə yazdığımız kimi, özü seçilən adamın, necə deyərlər, "dili uzun olur", çünki o, mandatı sədəqə kimi almadığının fərqində olur və buna adekvat da hərəkət edir...

Hakimiyyəti isə belə perspektiv çox qorxudur. Ona görə də ölkə müstəqil adamlardan "təmizlənir", nəticədə də bu ölkədə yalnız "buyruq qulları" qalır və siz bir detala fikir verin: hakimiyyətin özündə də demək olar ki, parlaq simalar çox azdır...

Amma bir müddət əvvəl belə deyildi. Baxırdın ki, bəli, bu məmurun siyasi perspektivi ola bilər. Amma sonradan hakimiyyət düşərgəsinin özü də bu cür simalardan "təmizləndi"...

Deyərdim ki, eyni yolla müxalifət düşərgəsi də addımladı. Bütün müxalifət siyasəti iki-üç nəfərin ambisiyasına qurban verildi. Sanki əvvəldən hər şey elə bu adamların "siyasi karyerası" naminə edilmişdi...

Bəli, mən indi "siyasi karyera" ifadəsini dırnaqda yazıram, çünki bunu ciddi qəbul etmək çətindir. Ən başlıcası, müxalifətdə yeniliklərə və yeni adamlara start verməyə imkan tapılmadı. Hərəyə bir ad yapışdırdılar. Guya ki, müxalif partiyada başçı və yaxud da aparıcı sima başqası olsaydı o, asılı vəziyyətə düşəcəkdi. Halbuki, bu, yalnız gülüş doğura bilər, çünki müxalifətin bundan da asılı və zəif halını təsəvvür etmək çətindir. Necə deyərlər, islanmışın sudan nə qorxusu?..

Ona görə ümid yalnız "siyasi torq"lara qalıb, yalnız siyasi sövdələşmələr və hətta deyərdik ki, siyasi alver müxlaifəti yenidən gündəmə gətirə bilər. Amma "torq" da, alver də güclü tərəflə aparılır. Müxalifət isə indi belə tərəf deyil...

Belə vəziyyətdən isə hamı itirir. Ölkədə müstəqil sözə, müstəqil fikrə, müxalif mövqeyə maraq azalır...

Arabir əyalətə yol düşəndə görürsən ki, insanlar artıq müxalifət kəlməsini belə unudublar. Heç şəhərdə də vəziyyət ürəkaçan deyil...

Bəli, bizim siyasi mühit çox qısır oldu. Üzr istəyirəm, bu vaxt ərzində "siyasi abortlar" çox oldu-cəmiyyətə yeni siyasətçilər meydana çıxarmağa imkan vermədilər. Halbuki qonşu Gürcüstana və Ukraynaya baxın! Siyasi komandalar və siyasi nəsillər neçə dəfə dəyişdi!..

Hətta Ermənistanda vəziyyət başqa cürdür. Azərbaycandakı siyasi palitra heç bir yerdə qalmayıb-hər yerdə 80-ci illərin ictimai dalğasında siyasətə gələnlər indi memuarlarını yazmaqla məşğuldurlar...

Bizdə isə köhnə hamamdır və köhnə tas... Ona görə də böyük ümidlər üçün elə bir əsas yoxdur-bizim siyasət bir neçə adamla bahəm qocalmağa məhkumdur. Siyasi partiyalar sizə getdikcə daha çox qocalar evini xatırladırsa bundan elə də təəccüblənməyin, çünki bu, gerçəklikdir...

**Yunanıstanda iyulun 5-də keçirilən referendumdan sonra səslərin 100 faizi sayılıb və səsvermədə iştirak edənlərin 61 faizdən çoxu beynəlxalq kreditorların təqdim etdiyi iqtisadi qənaət proqramına "yox" deyib. Yunanıstan referendumunun nəticəsi açıqlanandan sonra Fransa prezidenti Fransua Olland və Almaniya kansleri Angela Merkel Avropa İttifaqı ölkələrinin fövqəladə sammitini çağırıb. Sammitdə Yunanıstanın avrozonada qalıb-qalmaması məsələsi həll olunacaq.**

# Yunanıstan referendumu- ölkənin gələcəyinə ciddi şübhələr var...

## Ekspertlər bildirirlər ki, səsvermənin gözlənilən təsirləri avronun kursunun kəskin ucuzlaşması, Avropa ölkələrinin səhm bazarının ciddi dəyər itirməsi olacaq...






Bundan əvvəl Almaniya hökumətindəki mənbələr bildirmişdi ki, Yunanıstanda referendumdan "yox" cavabının çıxması bu ölkənin avrozonadan atılması ilə nəticələnəcək və nə qədər ki, baş nazir Aleksis Tsipras hakimiyyətdədir, bu ölkəyə bir sent də yardım verilməyəcək. (virtualaz.org)

Lakin Brüsseldəki mənbələr bildiriblər ki, Yunanıstandakı referendumun nəticələri bu ölkənin avtomatik olaraq avrozonadan atılması mənasını vermir. Çünki hansısa ölkənin avrozonadan çıxarılmasına dair leqal prosedur belə yoxdur. Bu baxımdan vəziyyətin sonrakı inkişafını ancaq danışıqlar müəyyən edəcək. Yunanıstan hökuməti isə referendumda dəstək qazandıqdan dərhal sonra beynəlxalq kreditorlarla danışıqları bərpa etməyə hazır olduğunu bildirir.

Ekspertlər isə gözləyirlər ki, Avropa birjaları açılan kimi Yunanıstandakı səsvermənin nəticələrinin təsiri altında indekslər aşağı düşəcək. Habelə Rusiyada birja indekslərinin və rublun kursunun aşağı düşməsini gözləyirlər. Avronun da dollara nisbətən zəifləyəcəyi gözlənilir.

**Yerli ekspertlər isə Yunanıstanda baş verənləri bir neçə aspektdən dəyərləndirirlər. Ekspert Qubad İbadoğlunun sözlərinə görə, Yunanıstandakı referendum Avropa Birliyi ilə danışıqlar üçün qapını açıq saxladı:** "Yunanlar referenduma "yox" deməklə baş nazir Alexis Tsiprasın danışıqlarda mövqeyini möhkəmləndirsə də, qeyri-müəyyənlik davam edir. Bu qeyri-müəyyənliyin ilk zərbəsini dünyanın ikinci böyük iqtisadiyyatına malik olan Çin alıb. Bu gündən Çin valyutası və şirkətlərinin səhmləri dəyərini itirməyə başlayıb. Bu proseslərin digər bazarlara təsiri də istisna olunmur. Afinada baş verənlər həm Avropa və həm də yunanlar üçün yaxşı dərs oldu. Bir tərəfdən işləməkdən başqa hər şeyə razı olan, aldıqları borcları öz qazancları kimi xərcləyən yunanlar, digər tərəfdən isə dəyərsizləşən yunan iqtisadiyyatından mənfəət qazanmaq istəyən xarici investorlar passiv biznesə sərmayələri ilə bütövlükdə bu ölkənin gələcəyinə ciddi şübhələr yaradıblar. Odur ki, Avropa Birliyin rəhbərlərinin sabaha planlaşdırılan görüşündə müzakirələrin ağır keçəcəyi gözlənilir. Hətta həmin görüşdə kredit şərtləri yumşalsa da belə, Yunanıstan borclarını qaytarmaq məcburiyyətindədir. Əslində borc probleminin həllinin ən doğru yolu da budur. Yunanlar başa düşmədilər ki, xərclədikləri pullar onların deyil, özgəninki olub və bu pullar istənilən halda və nə vaxtsa geri qaytarılmalıdır. Məbləğ isə balaca deyil, söhbət 240 milyard avrodan gedir. Ümumilikdə yunanların borcları 320 milyard avro dəyərində qiymətləndirilir ki, bu da ÜDM-in 178 faizi deməkdir".

Ekspert Vüqar Bayramovun sözlərinə görə isə əslində Yunanıstanda dünən keçirilən referendumun nəticələri həm yunanlar, həm də qədim qitənin digər üzvləri üçün iqtisadi baxımdan ciddi heç nə dəyişmirdi: "Afina Brüsselə "yox" dedi. Amma hətta qədim filosofların vətənində kreditorlar üçün "isti külək" əssəydi də belə, qısa və hətta orta müddətli dövrdə tərəflər dönüş edə bilməyəcəkdilər. Böhran yunanları pulsuz qoyub. Ötən 5 ildə isə qərblilər Yunanıstanda bəzi adalardan tutmuş aparıcı dövlət şirkətlərinin səhmlərinədək özəlləşdiriblər. Deməli, beynəlxalq maliyyə qurumlarının və hətta Avropa Birliyinin "anti-böhran resepti" ölkəni "sıfır cəmli oyununun" iştirakçısına çevirib. Atılan istənilən addımın taktiki təsirləri ola bilər, strateji baxımdan oyunda nəticə dəyişməyəcək: Afinanın tablodan sıfırı və ya sıfırları silmək üçün nə iqtisadi gücü, nə də siyasi dəstəyi var. Böhran isə Yunanıstanda dominatlığını gücləndirən bir sıra aparıcı Qərb ölkələrinə öz hesablarına xeyli xallar yazmasına çoxdan imkan yaradıb".

**Ekspertin sözlərinə görə, Yunanıstan Azərbaycan üçün strateji baxımdan əhəmiyyətli tərəfdaşlardandır. Bu ölkə Azərbaycanın əsas strateji qaz kəməri olacaq TAP-da istehlakçı və eyni zamanda tranzit ölkədir:** "Ölkəmizin sözügedən dövlətdə sərmayələri ilə Dövlət Neft Fondunun aktivlərinin dörddə birini avro və idarə olunan vəsaitlərinin 40 faizinin Avropa Birliyində saxlanıldığını nəzərə alsaq, Yunanıstanda böhran başa çatmasında maraqlı olan ölkələrdən birinin də məhz Azərbaycan olduğunu desək yanılmarıq. Gözlənilir ki, referendumun nəticələri avronun dollara məzənnəsinə təsir göstərəcək. Elə Azərbaycan Mərkəzi Bankının da bu iş həftəsinə zəif avro ilə başlayacağı da proqnozlaşdırılandır. Doğrudur, bazardakı mövcud tarazlıq hələlik avropalıların pulunun kursunda çox kəskin azalmalara imkan verməyəcək. Eyni zamanda Yunanıstan böhranının ölkəmizin strateji qaz kəmərlərinin reallaşmasına təsir edəcəyi gözlənilmir. Razılaşmaq lazımdır ki, bu təşəbbüslərin reallaşmasında Bakı və Brüssel qərarverici tərəflərdir. Afina sadəcə iştirakçıdır. Kəmərin əsas benefisarı olan İtaliya isə özünün enerji asılılığını yumşaltmaqda maraqlı görsənir. Yunanıstanın defoltu Dövlət Neft Fondunun gəlirliliyinə mənfi təsir göstərməyəcək. Bir tərəfdən, fond artıq xeyli vaxtdır "avrosuzlaşma" siyasəti aparır. Digər tərəfdən isə bu defoltdan ABŞ və Almaniya səhmdarlarının qazanacağı gözlənilir. Sözügedən dövlətlərdə səhmlərin qiymətində artımlar gözlənilir. Bu isə okeanın o tayında vəsaitinin təxminən yarısını saxlayan Neft Fondu üçün yaxşı xəbər sayıla bilər. Referendumun nəticələri Azərbaycanla Avropa arasında iqtisadi əlaqələrə də təsir göstərməyəcək. Bu qitəyə daha çox strateji məhsullar ixrac edən Azərbaycanın avro-idxalında həcm və qiymətdə hələlik hər hansı dəyişikliklərin olacağı gözlənilmir. Beləliklə, Afina yeni mərhələnin başlanğıcındadır: bu ölkədə hətta sabahı proqnozlaşdırmaq çətin olsa da belə".

**Ekspert Natiq Cəfərli isə vurğulayıb ki, səsvermənin gözlənilən təsirləri avronun kursunun kəskin ucuzlaşması, Avropa ölkələrinin səhm bazarının ciddi dəyər itirməsi ola bilər:** "Orta və uzun vədədə təsirlərini hesablamaq üçün AB-nin atacağı addımları gözləmək lazım gələcək. Əgər AB Yunanıstan şantajına boyun əyib, bu ölkəyə ciddi güzəştə getsə, borclarını silsə, yeni kredit xətti açsa, islahat paketini yumşaltsa, bütün Avropada, əsas da Cənub ölkələrində aşırı sol və aşırı sağ siyasi qüvvələr güclənəcək. İtaliya, İspaniya, Portuqaliya, Kipr kimi ölkələrdə aşırı uclarda olan siyasi partiyaların hakimiyyətə gəlmə şansı artacaq, onlar da şantaj yolu seçərək trilyonlarla avro olan dövlət borclarını silməyə, daha çox güzəşt qazanmağa çalışacaqlar. Yox, əgər AB yunanlarla sərt davranıb başqalarına da dərs olacaq qərarlar alsalar- AB və avrozona bir müddət sancılı duruma düşəcək. Amma sonra vəziyyət stabilləşəcək".

Qeyd edək ki, artıq Yunanıstanın maliyyə naziri Yannis Varufakis də istefa verib. Referendumda "yox" deyilməsinin üstündən 24 saat keçməmiş nazir Varoufakis zəfərə baxmayaraq istefasını açıqlayıb. Sərt çıxışları və Avropa Birliyinə meydan oxuması ilə yadda qalan maliyyə nazirinin istefasını elə AB ilə əlaqələndirirlər. Belə ki, baş nazir qurumla münasibətləri daha sakit nazirlə davam etmək istəyir.

❑ RÖYA

**“Space” telekanalının efirində son günlər baş verən qalmaqallar gündəmi məşğul edib. Son bir həftədə iki ayrı-ayrı verilişdə qonaqların təhqir olunması ciddi qalmaqala səbəb olub. Artıq telekanalın rəhbəri Vaqif Mustafayev “Günaydın” verilişində baş verən “Sən fahişəsən!” qalmaqalı ilə bağlı Milli Televiziya və Radio Şurasına (MTRŞ) təqdimat göndərib və bütün sənədləri quruma təqdim edib. Son olaylardan sonra telekanalda ciddi kadr dəyişikliyi baş verdiyi, ixtisarların, işçilərin öz hesabına məzuniyyətə göndərildiyi deyilir.**

# “”“Space” nə edib ki, onu qapatsınlar?”

## Telekanalın icraçı direktoru Kamil Şahverdiyev: “Canlı yayımdır, insandır, sözü deyib, o anı geri qaytarmaq, onu kəsmək mümkün deyil”

*Bu hadisələrlə bağlı “Space” kanalının icraçı direktoru Kamil Şahverdiyev “Yeni Müsavat”a danışdı.*

***- Son günlər kanalda baş verənlər, eləcə də verilişlərdəki qalmaqallar gündəmdə ciddi müzakirə olunur...***

- “Space” kanalının üzərinə gəlirlər. Nəyə görəsini bilmirəm.

***- Hər halda, sizin “Günaydın” verilişində yazar Əziz Musaoğlu müğənni Mətanət Əsədovanı “fahişə” adlandırıb. Başqa bir verilişdə aparıcı Səidə Sultan qonağına “səni cıraram” deyib... Bunlar da sıradan hallar deyil axı...***

- Biz də tədbirlərimizi görmüşük. Milli Teleradio Şurasına bu barədə məlumat vermişik, rəsmi sənədləri göndərmişik. “Əsl şou” verilişinin aparıcısı dəyişdirildi. Sonra “Günaydın” verilişini də dayandırdıq. Baxmayaraq ki, ilin sonuna qədər bu verilişin müqaviləsi vardı, biz iyunun 17-də prosesi dayandırdıq. Yəni biz də efirdə buraxılan səhvlərə görə tədbirlər görürük, səhv edənlər də cəzalandırılır.

***- Milli Teleradio Şurasına göndərdiyiniz təqdimatda nələr qeyd olunub?***

- Biz orda aparıcıların dəyişdirilməsi haqqında məlumat vermişik. Çünki aparıcı etdiyi səhvə görə məsuliyyət daşıyırdı. Aparıcının cəzalandırılması barədə daxili sənədlərin surəti Milli Teleradio Şurasına göndərilib.

***- Maraqlıdır, bu qalmaqallı verilişlər sizə reytinq qazandırırdımı?***

- Əlbəttə. Amma bununla belə, deməliyəm ki, ən yüksək reytinq versə belə, orda efirə yaraşmayan ifadələrin səslənməsi xoşagəlməz haldır. Bu, olmamalıdır, bizə belə reytinq lazım deyil.

***- “Space” ətrafında gedən bu qədər söz-söhbət onun qapadılması ilə nəticələnə bilərmi?***

- Xeyr. “Space” nə edib ki, onun fəaliyyətini dayandırsınlar, efiri qapatsınlar?

***- Kamil bəy, efirə çıxmadan öncə aparıcılara hansı təlimatlar verilir? Məsələn, hansı sözü demək olmaz, qonaqla necə davranmaq lazımdır və sair kimi....***

- Əlbəttə deyilir. Amma canlı yayımdır da. İnsandır, sözü deyib, o anı geri qaytarmaq, onu kəsmək mümkün deyil axı. Bu, aparıcının öz səhvidir ki, bu sözü işlədib, ya işlətməyib.

***- Amma hiss olunur ki, aparıcılar da qalmaqalda maraqlıdır. Bəzən baş tutacağı, arzuolunmaz sözlərin səslənəcəyi hiss olunan bir davanı, atışmanı qızışdırdıqları ilk baxışdan özünü göstərir. Aparıcılara “qalmaqal yarat, reytinq qazanaq” kimi göstərişmi verilir telekanal rəhbərliyi tərəfindən?***

- Xeyr, telekanal rəhbərliyi də sizin mövqedədir. Kim istəyər ki, efirində qalmaqal yaradılsın, belə sözlər eşidilsin? Biz də istəmirik. Ona görə də mübarizə aparırıq. Amma yenə də canlı efirdir və canlı efirdə heç kim heç nədən sığortalanmır. Bununla belə, məsuliyyət payı aparıcının üzərindədir. O, bu sözü işlətməməli olduğu halda işlədirsə, günah da ondadır. Ona görə də cəzalanır.

***- Adını sadaladığınız verilişlərin aparıcılarını “Space” kanalından tamamilə uzaqlaşdırdınızmı?***

- Onlar əslində kanalının əməkdaşları deyildi. Prodakşn şirkətləri tərəfindən hazırlanmış proqramlar idi. Biz də o prodakşnlara şərt qoyduq ki, həmin aparıcıları dəyişdirsinlər.

***- Media kluarlarında dolaşan xəbərlərə görə, “Space” rəhbərliyi bəzi verilişləri bağlayır, işçiləri isə öz hesabına məzuniyyətə göndərir...***

- Yox, bütün kanallarda olduğu kimi, yay vaxtı bəzi proqramlar məzuniyyətə gedir, bəziləri öz fəaliyyətini dayandırır. Amma bizdə bunun əksinə olaraq, yay dövründə bəzi yeni verilişlər də açılıb. Biz tamaşaçıları yeni proqramlarla sevindirəcəyik. İşçilər isə növbəli sistemlə öz qanuni məzuniyyətlərinə gedirlər.

❑ **SELCAN**

# MTRŞ “Space”yə güzəştə gedir?

## Toğrul Məmmədov: “Kanalın rəhbərinin gördüyü tədbirlər şura tərəfindən təqdirəlayiq hesab edilib”

**“”Space" kanalının rəhbərliyi efirdə baş verən qalmaqallar üzündən işdən çıxarılan aparıcılar və işçi heyətinə verilən töhmətlər barəsində MTRŞ-yə hesabat təqdim edilib". Bu sözləri Milli Televiziya və Radio Şurasının aparat rəhbəri Toğrul Məmmədov “Yeni Müsavat”a verdiyi açıqlamasında deyib. Şura rəsmisinin sözlərinə görə təqdim edilən hesabat kanal üçün yüngülləşdirici hal kimi nəzərdə tutulacaq: “Kanal rəhbərliyi artıq şuraya öz hesabatını təqdim edib. Bu normal tendensiyadır. Görünən budur ki, kanal rəhbərliyi efirdə baş verən, qeyri-etik, xoşagəlməz olaylarla bağlı özü tədbir görüb və bu, şura tərəfindən təqdirəlayiq hesab edilib”.**

Şura rəsmisi onu da qeyd etdi ki, özəl televiziyalarda yayımlanan bütün şou tipli verilişlər barəsində ciddi araşdırmalar aparılır: “Bütün şou xarakterli verilişlərin siyahısı hazırlanıb. Araşdırma zamanı Milli Televiziya və Radio Şurası haqqında Əsasnamənin 32-ci bəndinə əsasən verilişə verilən tələblərin pozulması halları aşkar edilərsə, həmin verilişlər barəsində ciddi tədbirlər görüləcək”.

**Qeyd edək ki, “Space” kanalının rəhbərliyi efirdə səslənən qeyri-etik sözlərə görə müğənni Səidə Sultanı efirdən uzaqlaşdırıb. Verilişin aparıcılığı isə jurnalist Tahirə Məmmədqızına həvalə olunub. O, birinci efir günündən sonra “Yeni Müsavat”a açıqlama verib:** “”Space" kanalına şəxsən televiziyanın rəhbəri Vaqif Mustafayev tərəfindən dəvət olunmuşam. Artıq hər kəsə məlumdur ki, xoşagəlməz olaylardan sonra “Space” televiziyasına qarşı böyük həssaslıq var. Bu səbəbdən kanal rəhbərliyi “Əsl şou” verilişinin heyətində köklü dəyişiklik etdi və aparıcılıq mənə etimad olundu. Veriliş efirə getməzdən iki gün öncə Vaqif Mustafayev yeni heyətlə geniş müzakirələr apararaq öz tövsiyələrini verdi".

**Tahirə Məmmədqızı verilişin yeni prinsiplər üzərində qurulduğunu deyib:** “Bundan önceki verilişlər mövzu üzərində qurulmurdu. Lakin artıq ”Əsl şou"nun hər bir yayımı konkret bir mövzuya əsaslanacaq, həftə və ya gün ərzində aktual olan məsələlərə toxunulacaq. Çalışacağıq ki, verilişə tamaşaçıların sevdiyi incəsənət nümayəndələrini dəvət edək.

Əsas odur ki, verilişdə daha efir qaydaları pozulmayacaq, tamaşaçılar qeyri-etik davranışlar görməyəcək".

Xatırladaq ki, bugünlərdə “Space” TV-nin efirində yayımlanan Vüsalə Kərimovanın aparıcılıq etdiyi verilişdə müğənni Mətanət Əsədova ilə yazar Əziz Musaoğlu bir-birilərinə qarşı biabırçı şəkildə təhqiredici sözlər işlədiblər. Bunun ardınca həmin kanalda yayımlanan “Əsl şou”da müğənni Səidə Sultan həmkarı Rəhim Rəhimli ilə söhbətdə qeyri-etik sözlər işlədib. Hər iki olay cəmiyyətdə ciddi narazılıqla qarşılandı. Milli Televiziya və Radio Şurası (MTRŞ) məsələyə qarışaraq televiziya rəhbərliyinin bu olaylarla bağlı ciddi tədbirlər görməyəcəyi təqdirdə kanalın yayımının bir ay dayandırılacağı barədə xəbərdarlıq etmişdi.

❑ **Xalidə GƏRAY**



# “Xədicə İsmayıl deyir ki, mən yanlış subyekt olaraq seçilmişəm”

## Fariz Namazlı: “Jurnalist radioda maliyyə öhdəliyi daşıyan adam olmayıb” Tural Mustafayev: “Prokurorluqda mənə dedilər ki...”

Vəkil Fariz Namazlı ötən həftə AzadlıqRadiosunun əməkdaşı, hazırda həbsdə olan müvəkkili Xədicə İsmayılla görüşüb. Bu barədə bizə açıqlamasında F.Namazlı bildirdi. Onun sözlərinə görə, jurnalistin durumu yaxşıdır, artıq istintaq materialları ilə tanış olub. F.Namazlı dedi ki, cinayət işi üzrə icraata artıq xitam verilib, bu gün vəsatət veriləcək. Vəsatət təmin olunmasa, ittiham aktı tərtib olunub, məhkəməyə göndəriləcək. Vəkilin sözlərinə görə, gələn həftədən sonra proses olmalıdır.

F.Namazlı dedi ki, ortada X.İsmayılın təqsirini təsdiq edən heç bir sübut yoxdur. Jurnalistin üzərində Cinayət Məcəlləsinin 125-ci maddəsi *(özünü öldürmə həddinə çatdırma)* ilə bağlı maddə qalıb. Vəkilin sözlərinə görə, qarşı tərəf - Tural Mustafayev ərizəsindən imtina etsə də, şikayət qüvvəsində qalıb: “Bu şəxs şikayətindən imtina edib. Deyib ki, təzyiqlər nəticəsində belə bir ərizə yazmaq məcburiyyətində qalıb. Hətta kimin təzyiqinə məruz qalması ilə bağlı adlar da sadalayıb. Amma prokurorluqda o məsələ araşdırılmayıb ki, kim təzyiq edib, nəyə görə edib. Prokurorluq bir cümlə göstərib ki, zərərçəkənin ərizəsindən imtinasına görə işə xitam verilmir. Halbuki burda iki nüans var. Əgər ərizəçi öz şəxsi istəyinə əsasən ərizəsindən imtina edərsə, bu halda onun şikayətinə əsasən həmin hissəyə xitam verilə də bilər. Amma əgər ərizəçi təzyiq əsasında belə bir ifadə verdiyini etiraf edirsə, bu halda dərhal xitam verilməlidir”.

**Vəkil xatırlatdı ki, X.İsmayıl T.Mustafayevin həkimdən keçdiyini, hətta daha öncə intihar etdiyini deyib. Amma gənc həmin vaxt buna görə X.İsmayılı ittiham etmirdi:** “Xədicə xanım bildirib ki, 2014-cü ildə Tural Mustafayevi görməyib. Onunla hər hansı danışığı, münasibəti olmayıb. Digər ittihamlara gəlincə, deyib ki, yanlış subyekt olaraq seçilib. ”Mən AzadlıqRadiosunda maliyyə öhdəliyi daşıyan adam olmamışam". Bunu da Xədicə xanım deyib".

**Tural Mustafayev isə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, yazdığı ərizəyə baxmayaraq, onu bu iş üzrə zərərçəkən kimi tanıyırlar. Müsahibimiz bir neçə gün öncə prokurorluqda olub. Ona istintaqın yekunlaşdığı bildirilib, 15 cilddən ibarət istintaq materialları ilə tanışlıq təklif edilib:** “Saat yarım müddətində orda oldum. Bildirdilər ki, 20-25 günə, 1 aya qədər məhkəmə başlanacaq. Onlara şikayət ərizəsini təzyiq altında yazdığımı bildirdim. Dedilər ki, məhkəmədə istədiyinizi deyə bilərsiz. İzahatım, ərizəm işə tikilib. Cildlənib, nömrələnib. Məni çağırmışdılar ki, sənədlərlə tanış olum. Bütün hallarda məhkəməyə çıxacağam və sözümü deyəcəm”.

Xatırladaq ki, jurnalist Xədicə İsmayıla qarşı ötən ilin dekabrın 5-də Cinayət Məcəlləsinin 125-ci maddəsi (özünü öldürmə həddinə çatdırma) irəli sürülüb və o, həmin gün həbs olunub. Səbayel Rayon Məhkəməsində hakim Elşad Şamayevin sədrliyi ilə keçirilən prosesdə onun barəsində 2 aylıq həbs-qətimkan tədbiri seçilib.

Fevralda jurnalistə qarşı Baş Prokurorluq Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və israf etmə- külli miqdarda törədildikdə),192.2.2 (qanunsuz sahibkarlıq), 213.1(vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui istifadə) maddələri ilə yeni ittihamlarını elan edib.

Bu ittihamlara görə jurnalisti 12 ilədək həbs gözləyir.

Xədicə İsmayıl irəli sürülən ittihamları peşə fəaliyyəti ilə əlaqələndirərək rədd edib. Beynəlxalq Amnistiya Təşkilatı jurnalisti “Vicdan məhbusu” elan edib.

❑ **Sevinc TELMANQIZI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Prezidentləri niyə ABŞ görüşdürmək istəyir?

## Böyük pauzadan sonra Vaşinqton prosesi "ölü nöqtə"dən çıxara biləcəkmi? Rusiya amilini neytrallaşdırmaq üçün görüş yerini deyil, ikili standart siyasətini dəyişmək lazımdır...



**Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün vaxtı və yeri açıqlanıb. İlham Əliyev və Serj Sarkisyan sentyabrda ABŞ-da bir araya gələcəklər. Görüş BMT Baş Assambleyasının Nyu-Yorkda növbəti iclası çərçivəsində baş tutacaq və bu, iki ölkə prezidentinin son illərdə sayca dördüncü görüşü olacaq.**



Məhz elə bu məqsədlə də ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona növbəti səfəri gözlənilir. Onlar Azərbaycanın və Ermənistanın dövlət başçılarının görüşünün təşkili məsələsini müzakirə etməyə hazırlaşırlar. Bəllidir ki, həmsədrlərin birgə səfərindən öncə amerikalı vasitəçi Ceyms Uorlik ayrıca İrəvan və Bakıya gedərək, bu yöndə danışıqlar aparıb.

Əslində Nyu-York görüşünün anonsu prezidentlərin ötən il oktyabrın 27-də Parisdəki sonuncu görüşü zamanı verilib. Yəni belə qənaət hasil olur ki, onlar növbəti dəfə 11 aydan sonra (!) görüşəcəklər. Bu, əlbəttə ki, son illərin danışıqlar tarixində ən böyük pauzadır və ilk növbədə sülh prosesinin dalana girdiyini, Qarabağ müzakirələrinin səmərəsizliyini göstərir. Elə bu məqamı nəzərə alan Bakı rəsmiləri bəyan ediblər ki, Azərbaycan tərəfi görüş xətrinə görüş keçirməyin tərəfdarı deyil.

***

Lakin həmsədr ölkələr, xüsusən də ABŞ və Fransa təmsilçiləri belə hesab edirlər ki, nəticə olmasa da, prezidentlərin adicə görüşüb şəkil çəkdirməsinin özü pozitivdir və müharibə ehtimalını azaldır, sülhə ümidləri artırır, qarşılıqlı etimada xidmət edir.

Müharibənin mümkünlüyünü isə getdikcə daha çox ekspert real hesab eləməkdədir. Narahatlıq həmçinin iki həmsədrlər ölkə - ABŞ və Rusiya arasında Ukraynaya görə yaşanan gərgin münasibətlərdən yanadır. Təhlükə var ki, bu ziddiyyətlər Qarabağ probleminin həll axarını daha arzuolunmaz səmtə yönəldə bilər. Odur ki, ABŞ konflikt ətrafındakı situasiyanı daha ciddi nəzarət altında saxlamağa, tərəfləri sülhə vadar eləməyə çalışır.

**"Rusiya tərəfindən Ukraynada həyata keçirilən beynəlxalq işğal səbəbindən bu ölkənin ABŞ və digər Qərb dövlətləri ilə münasibətləri kəskinləşib, lakin prezident Barak Obama, dövlət katibi Con Kerri ardıcıl şəkildə qeyd edirlər ki, ortaq maraqların olduğu məsələlərdə biz birgə işləməyə hazırıq".**

Bu barədə ABŞ-ın Ermənistandakı səfiri Riçard Mills yerli portallardan birinə müsahibəsində Dağlıq Qarabağ problemi ilə bağlı iki ölkənin mümkün əməkdaşlığına dair sualı cavablandırarkən bildirib.

**"Düşünürəm ki, ABŞ və Rusiyanın konfliktin dinc nizamlanmasından dolayı hədəfi eynidir. Bizim qiymətləndirməmizə görə, münaqişə tərəflərindən də heç biri konfliktin və ya müharibənin bərpa olunmasına səy etmir. Biz artıq illərdir çalışırıq ki, düşmənçiliyi aradan qaldırmadan ötrü ermənilər və azərbaycanlılar arasında ünsiyyəti təmin edək"** - deyib diplomat.

Səfir Minsk Qrupu həmsədrliyinə Türkiyə və Almaniyanın gətirilməsi ehtimalına da toxunub: **"Birləşmiş Ştatlar hesab edir ki, indiki tərkibdə dəyişiklik etməyə heç bir ehtiyac yoxdur. Minsk Qrupunun tərkibində də hər hansı dəyişiklik mümkün deyil, əgər buna bütün tərəflərin hamısının razılığı yoxdursa".**

***

Ancaq fakt budur ki, hazırkı həmsədrlər daha çox ermənilərə meyllilik nümayiş etdirir, Azərbaycana münasibətdə ikili standartlardan çıxış edir, işğalçını adı ilə çağırmırlar. Halbuki Rusiyaya, Krıma münasibətdə diametral əks mövqe sərgilənir. Almaniya və Türkiyənin vasitəçiliyə gətirilməsini də ən əvvəl bu disbalans diktə edir.

İki isti nümunə: bir neçə gün öncə ABŞ-ın vitse-prezidenti Co Bayden Şərqi Ukraynada separatçı rejimlərin oktyabrın 18-də yerli "seçkilərə" hazırlaşmasını qətiyyətlə pisləyən açıqlama verdi. Bayden bəyan elədi ki, bu, birbaşa Minsk anlaşmasının və Ukrayna qanunvericiliyinin pozulması demək olacaq.

Yada salaq ki, mayın 3-də Dağlıq Qarabağda da qanunsuz seçkilər keçirilmiş, lakin Amerikadan analoji sərt bəyanat gəlməmişdi. Sual ortaya çıxır yenə: nədən Dağlıq Qarabağdakı "seçkilərə" eyni kəskin reaksiya göstərilmir, hələ üstəlik, bu separatçı quruma ABŞ hər il maliyyə yardımları ayırır, "Dağlıq Qarabağ xalqı öz gələcəyinin müəyyən edilməsində iştirak eləməlidir" kimi ikibaşlı yanaşma sərgiləyir?

Rusiyanın mövqeyindən danışmağa ümumiyyətlə dəymir, çünki bu ölkə, sadəcə, Ermənistanla birgə münaqişə tərəflərindən biridir. Krımın işğal gününü özünün tarix kitablarına salmağa hazırlaşan bir dövlət, Ermənistanın hərbi müttəfiqi, görəsən, Dağlıq Qarabağ məsələsində ədalətli münsif ola bilərmi? Sual ritorikdir.

***

Hərçənd Rusiya özünü elə aparır ki, guya Ermənistanla Azərbaycana eyni gözlə, ədalət prizmasından baxır. Hətta tanınmış rusiyalı telejurnalist **Vladimir Pozner** iddia edir ki, "Azərbaycanla münasibətlər Rusiyadan ötrü Ermənistandan daha önəmlidir". Bu fikri o, erməni saytına müsahibəsində söyləyib. **"Konkret halda Rusiya öz maraqlarından çıxış edir və Azərbaycanla əlaqələr Moskva üçün daha mühümdür"** - deyib Pozner.

İki ölkənin iqtisadi resurslarını müqayisə edən analitik ardınca bildirib: **"Bir yanda Ermənistan adlı ölkə var. Kasıbdır, orada daşlı torpaqdan və bir də ərikdən savayı heç nə yoxdur. Balaca, kiçik xalqı olan ölkədir. Başqa yanda isə Azərbaycan var - olduqca varlı neft ölkəsi, açıq-aşkar yüksəlişdə olan, üstəlik, Türkiyə ilə sıx əlaqələrə malik bir ölkə. O Türkiyə ki, çox mühüm dövlətdir, NATO üzvü, ümumiyyətlə Cənub cinahında ən vacib dövlətlərdən biridir. Və bir yanda da Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağa görə konflikt var. Mən artıq öz proqramımda bildirmişəm ki, siyasət - kim nə deyir-desin, nə vicdani hisslərə, nə də mənəviyyata və ədalətə əsaslanır. Siyasət - soyuq hesablama isidir, milli maraq anlayışından çıxış edən dəqiq hesablamadır".**

**"Odur ki, əgər bu anlayışdan çıxış eləsək, Rusiya üçün Azərbaycanla əlaqələr daha vacibdir, nəinki Ermənistanla. Ola bilsin, bu, kiməsə xoş gəlməsin, necə istəyirsiniz, lakin məsələlərə sakit, soyuq başla baxanda, bu, məhz belədir. Ona görə də Rusiyanı mən günahlandırmazdım"** - əlavə edib Pozner.

***

Poznerin Azərbaycanla bağlı söylədikləri təbii ki, səmimiyyətdən uzaqdır. Ən azı ona görə ki, vacib tərəfdaş sayılan bir ölkənin problemlərinin də qayğısına qalırlar. Qarabağ məsələsində isə Rusiyanın fəallığı, problemi yoluna qoymaq əzmi sezilmir. Rusiyanın Ermənistana real təsir imkanlarını nəzərə alsaq, konfliktin həlli məhz Kremlə görə yerində sayır və böyük ehtimalla prezidentləri Nyu-York təması da bu acı reallığı dəyişmək gücündə olmayacaq.

Rusiya amilini neytrallaşdırmaq üçün görüş yerini yox, ikili standart siyasətini dəyişmək lazımdır. Qərbi nəzərdə tuturuq.

# Ermənistan iqtisadiyyatı defolt təhlükəsi qarşısında

**Son illər Ermənistan hökuməti böyük həcmdə daxili və xarici borc yığır ki, bu da defolta səbəb ola bilər. Bu barədə "Trend" Ermənistanın "Aykakan jamanak" qəzetinə istinadən məlumat verir.**



Qəzet yazır ki, rəsmi proqnozlara əsasən, 2015-ci ildə Ermənistanın dövlət borcu 4,9 milyard dollar təşkil edəcək, bu göstərici 2008-ci ildə 2,13 milyard dollar olub və bunun 1,82 milyard dolları xarici borcun payına düşüb: "Əgər 2008-ci ildə dövlət borcu ÜDM-in 18 faizini təşkil edirdisə, o, 7 ildə cəmi 2,5 dəfə artaraq 2015-ci ildə təqribən 44,5 faizə çatacaq".

**Məlumatda qeyd olunur ki, hər şey reallıqda daha pis olacaq:** "Belə ki, cari ilin I rübünün yekunlarına görə, dövlət borcu ÜDM-in 52 faizini üstələyir. Bu göstəricinin cari ilin sonuna ÜDM-in 55-57 faizinə çatacağı gözlənilir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 146 (6174) 7 iyul 2015

# İstilər dünyada can alır

## Günəşdən necə qorunaq ki, ölməyək?

**Xəbər verdiyimiz kimi, Pakistanın Kəraçi şəhərində kütləvi şəkildə dəfnlər həyata keçirilir. Havaların isti və rütubətin çox olmasına görə bu günə qədər 1300-dən çox insan həyatını itirib. Məsullar bu cəsədləri cəm halında basdırmaqdan başqa çarələrinin olmadığını bildiriblər. Bunun üçün kütləvi məzarlıq qazılıb və həlak olanlar cərgəylə torpağa tapşırılıblar.**



Həmçinin digər vilayətlərdə də isti hava şəraiti çoxlu sayda insan itkisinə səbəb olub. Ramazan ayının başlanğıcından bu yana regionda güclü istilər düşüb.

Ötən istirahət günlərində Karaçidə 45 dərəcə isti olub. Adının çəkilməsini istəməyən rəsminin sözlərinə görə, günvurmadan 40 mindən çox adam xəstələnib və onların 8000-dən çoxu xəstəxanaya düşüb. İyunun 25-də Karaçidə isti 37 dərəcəyə düşüb. Hökumət şəhərdə 100 tibbi mərkəz yaradıb.

Ölkənin nüfuzli dini xadimi iyunun 24-də bəyan edib ki, xəstə və zəifləmiş insanlar oruc tutmaya bilərlər.

Tibbi ədəbiyyatlarda isə göstərilib ki, insan orqanizmində bioloji proseslərin normal getməsi üçün zəruri temperatur 36-37 dərəcədir. Orqanizmdə istiliyi beyindəki termorequlyasiya mərkəzi tənzimləyir. İsti havada dəri genişlənir və buxarlanma baş verir. Nəfəs yollarında buxarlanma baş verir. Nəfəs yolları genişlənir ki, daxili temperaturu aşağı salsın. Qış vaxtında dəridə, damarlarda sıxılmalar olur ki, temperaturu saxlaya bilsin və bədən soyumasın. Amma orqanizm bayırda həddən artıq soyuq və ya isti altında qaldıqda termorequlyasiya pozulur və temperatur dəyişir. Uzun müddət hərarət altında olan şəxsdə də bədənin qızması baş verir. Yəni temorequlyasiya mərkəzləri bunun öhdəsindən tam gələ bilmir və bədənin temperaturu artır. Nəticədə də həddən artıq temperatur artdığından qan laxtalanması, qatılaşması artır və qanın hərəkəti pisləşir. Bu hadisəyə də istivurma deyilir.

Günvurmanın ölümlə nəticələnməsi halları da tez-tez özünü göstərir. Tronbozlar, ürək fəaliyyətinin dayanması, beyinə qan sızma halları bu zaman özünü göstərir.

İstivurmalar zamanı ilkin tibbi yardım olaraq gün vuran şəxsi yaş dəsmala bükmək lazımdır. Günvurma zamanı ilkin tibbi yardım olaraq zərərçəkmiş şəxsi sərin bir yerə çəkmək, onun alnına, bədəninə yaş dəsmal qoymaq lazımdır. Daha sonra isə həkim çağırılmalıdır. Həkim yardımı isə peşəkar yardımdan ibarətdir.

Günvurma - günəş şüalarının uzun müddət ərzində orqanizmə təsiri nəticəsində baş verir. Günvurma əksər hallarda, başı açıq şəkildə xeyli müddət ərzində gün altında qaldıqda baş verir. Belə hallarda gün şüalarının təsiri nəticəsində baş beyinə qan axını artır və beyinin qan dövranı pozulur. Bu zaman zərərçəkəndə zəiflik, ürəkbulanma, başgicəllənmə, güclü baş ağrıları, qulaqlarda küy, təngnəfəslik, nəbzin tezləşməsi, üşütmə, ürək bulanması və qusma, temperaturun 400C və daha artıq dərəcəyə yüksəlməsi kimi əlamətlər qeyd edilir. Ağır hallarda qıcolmalar və huşun itirilməsi də ola bilər. Bəzi hallarda bu əlamətlər dərhal, bəzi hallarda isə açıq günəş altında qaldıqdan bir neçə saat sonra evə gəldikdə baş verir.

Günvurmanın ilkin əlamətləri qeyd edilən kimi zərərçəkəni kölgəyə və ya sərin otağa aparmaq, onu sıxan paltarları çıxarmaq, yarıoturaq vəziyyətdə uzatmaq lazımdır. Zərərçəkənə soyuq su verib, üzünü, sinəsini soyuq su ilə silmək lazımdır Başına, boyunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə *(iri damarlar keçən yerlər)* buz və ya bu mümkün olmadıqda soyuq su ilə kompres qoyulmalıdır. Bu zaman əl və ayaqlara xardal kağızı da qoymaq olar. Daha bir üsul - paltarını soyundurub zərərçəkəni soyuq suda isladılmış parçaya bükmək və başına buz qoymaqdır. Zərərçəkənin temperaturu normaya çatdıqda onu quru parçaya və ya dəsmala bükmək lazımdır. Xəstənin vəziyyəti ağırlaşdığı halda dərhal "təcili yardım" çağırılmalıdır.

Huşunu itirdiyi halda zərərçəkənə naşatır spirti iylətmək, tənəffüs olmadıqda isə süni tənəffüs vermək tələb olunur.

2014-cü ilin dekabrında Peruda keçirilən BMT-nin böyük iqlim konfransında elan edilib ki, 2014-cü il tarixdə ən isti il olub.

**❑ Sevinc TELMANQIZI**



# Müstəntiq günahı qəzada ölən sərnişinin üstünə atdı

**"Müstəntiq cinayət işi üzrə icraata xitam verib, günahı isə ağır yol qəzası zamanı dünyasını dəyişmiş həkimin üzərinə qoyublar". Bu barədə virtualaz.org saytına vəkil Rəşad Mirmehdizadə məlumat verib. Vəkilin sözlərinə görə, hadisə bu il martın 11-də saat 00:46 radələrində Yasamal rayonu, M.Müşfiq küçəsində baş verib.**

Bakı şəhər sakini Muxtar Mehdiyev idarə etdiyi "Nissan" markalı avtomobili yolun ortasındakı səkinin üzərində olan elektrik direyinə vurub. Nəticədə ağır bədən xəsarətləri almış sərnişini - N.Tusi adına klinikanın baş həkiminin müavini Xalid Umudov xəstəxanaya aparılarkən yolda vəfat edib. M.Mehdiyevin özü və avtomaşında olan İmtiyaz Babayev isə xəsarət alıblar.

"Hadisədən sonra mərhumun həyat yoldaşı zərərçəkmişin hüquqi varisi kimi tanınmayıb. Məhkəmə yol-nəqliyyat hadisələri ekspertizasının 5 may, 2015-ci il tarixli rəyi alınıb. Yasamal Rayon Polis İdarəsi istintaq şöbəsinin müstəntiqi Simran Əsədullayev hadisənin əsl günahkarı olan sürücü Muxtar Mehdiyevin təqsirli olmamasını əsas tutaraq cinayət işi üzrə icraata xitam verib.

Hadisə yerindən çəkilişə və fotoşəkillərə baxanda da görünür ki, hadisəyə səbəb yüksək sürət olub. Avtomobildəki zədələr elədir ki, bu əziklər onun saatda 50-60 km sürətlə hərəkət etməsi nəticəsində baş verə bilməz. Bu, mümkün deyil"- deyə vəkil Rəşad Mirmehdizadə bildirib.

**Vəkilin dediklərindən belə məlum olub ki, ekspertlər iş üzrə təqsirli bilinən Muxtar Mehdiyev və İmtiyaz Babayevin ifadələrini əsas götürərək günahı mərhumun üstünə yıxıblar:** "Müstəntiq hər iki şəxsin ifadələrini əsas götürərək, yəni "Xalid "avtomobillə toqquşacaqsan" deyib arxadan qəflətən əli ilə onun sağ çiyinindən itələyib və bunun nəticəsində sükan çarxı fırlanıb, avtomobil sola istiqamətlənərək işıq dirəyinə dəyib" ifadəsi əsasında rəy verib. Belə çıxır ki, qəzanın baş verməsinin səbəbkarı sürücü yox, sərnişin olub. Çünki Muxtar Mehdiyevin məsuliyyətdən kənarda qalması başqa cür mümkün ola bilməzdi. Bu sahədə təcrübəsi olmayan şəxs də bilir ki, saatda 50-60 km sürətlə hərəkət zamanı avtomobildə o cür zədələr mümkün deyil. Bundan başqa, şəxsin arxa oturacaqdan maşının qarşısına başqa maşınla toqquşacağı ehtimalını görməsi və ani vaxt kəsiyində bunu müşahidə edib sürücüyə irad bildirərək itələməsi absurddur".

Vəkil işin yenidən araşdırılması və əsl günahkarların cəzalandırılması ilə bağlı müvafiq qurumlara şikayət etdiklərini deyib.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

*** Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
*** Cinsi marağın** və **cinsi aktların** azalması
*** Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
*** Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
*** Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
*** Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
*** Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
*** Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
*** Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
*** Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
*** Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
*** Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
*** Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
*** Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
*** Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
*** Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
*** Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**"İşıqlı yol" sürücülük məktəbi tərəfindən Salahov Elnur Qalib oğlunun adına verilmiş sürücülük şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**
**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**
**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**








**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 146 (6174) 7 iyul 2015

# Dil tutulması ömürlük ola bilərmi?

**İyunun 30-da Qusar rayonunun Çiləgir kəndində baş verən qətl zamanı nazirlərdən birinin qardaşının dili tutulub. Ümumiyyətlə, qorxudan, stressdən dil tutulmaları hallarına çox rast gəlinir. Maraqlıdır, dil tutulmasını ciddi xəstəlik hesab etmək olarmı və bu daha çox hansı hallarda baş verir?**



**Dəyanət Rzayev:** "Bunun müalicəsi falçı, ekstrasens yanında yox, psixoloq yanında mümkündür"



**Adil Qeybulla:** "Qorxudan dil tutulması müalicə və beynin sakitləşməsi nəticəsində keçib gedir, əgər..."

Həkim-mütəxəssislərə görə, əslində dil tutulması xəstəlik deyil, insan bədəninin xarici faktorlara verdiyi bir reaksiyadır. Qorxu, həyəcan, çaxnaşma və bənzər duyğular insanın dilinin tutulmasına və danışma qabiliyyətinin bir anlıq itməsinə səbəb ola bilir.

Dil tutulması bəzi insanlarda yalnız bir neçə saniyə, bəzi hallarda isə bir neçə dəqiqə çəkir. Bəzi dil tutulması hadisələrində isə problem qalıcı ola bilir. Buradakı ən əhəmiyyətli faktor bədənin özünü kilidləməsidir. Bu tip vəziyyətlərdə mütləq psixoloji dəstək almaq şərt kimi göstərilir.

**Dil tutulmasının müalicəsinə gəlincə, psixoloq Dəyanət Rzayev bunun müalicəsinin falçı, ekstrasens yanında yox, psixoloq yanında mümkün olduğunu dedi:** "Bu, sırf psixoloji faktordur. Müəyyən ruhi xəstəliklər nəticəsində insan daxili aləminə gedir. Buna autizim deyilir. Özünə qapanır və danışmır. Hər şeyi eşidir anlayır, sadəcə olaraq, danışmır. Şüuraltı bir proses baş verir. Amma sağlam insanlarda da müəyyən stress nəticəsində dil tutula bilir. Bu, orqanizmin müdafiə mexanizmləridir. Orqanizm özü muxtar formada fəaliyyət göstərir. Ola bilər ki, emosional gərginlikdə insanın dili tutulur. Çünki həmin emosional vəziyyətdə ona danışmamaq lazımdır. Əgər qorxudan, stressdən dili tutulan adam yaxşı psixoterapevtin yanına getsə təbii ki, dərman təyin olunacaq və dili açılacaq. Bu cür hallarla tez-tez rastlaşmışıq. Bu hal insan gərginlik, stress keçirəndə baş verir. Ancaq dil tutulması daha çox qorxu nəticəsində baş verir. Əgər dili tutulan insan əvvəllər danışıbsa, onun dili mütləq açılır. Stress orqanizmin ümumi adaptasiya sindromudur. Dili tutulan adamın üzərində psixoloq iş aparmaqla və düzgün müalicə etməklə həmin insanın dili açılacaq. Burada qorxulu və təhlükəli bir şey yoxdur. Psixiatrın məqsədyönlü dərmanlar tərtib etməsi ilə bu problem qısa zamanda aradan qaldırılır".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla da dil tutulmanın stress nəticəsində baş verən bir hadisə olduğunu dedi:** "İnsanın danışıq, nitq qabiliyyəti çox incə bir mexanizmlərlə idarə olunur. Hansısa stressdən, ağır xəstəlikdən bəzən xəstələrin dilində kəkələmə, rabitəsizlik və nitqin digər pozuntuları baş verə bilər. Ona görə də bu sahə, yəni beynin bu hissəsi daha çox zərifliyə və təsirə məruz qala bilir. Stress zamanı dil tutulmasından başqa göz tutulması, qulaq pozulması, yəni eşitmə qabiliyyətinin itməsi və digər hadisələr də baş verə bilər. Bu beyində idarə olunan mərkəzlərdən asılıdır. Beyində emosional motivasiyaların idarə olunduğu yer var. Bu özü xəstələrdə həddən artıq depressiyada nevrozlara və sairəyə gətirib çıxarır. Yəni bütün bunların hamısı keçirilmiş stressin qalıq əlaməti hesab edilə bilər. Bu cür stresslər, müvəqqəti baş verən həmin epizodlar müəyyən bir müalicə, beynin sakitləşməsi nəticəsində keçib gedir. Hesab edirəm ki, bu situasiyadan daha çox asılıdır. Əgər bu hansısa bir funksiyanın pozulması, dil tutulması və sairə beyində həm də digər patologiyalarla müştərək baş verirsə, əlbəttə, onun müalicəsi xeyli ağırlaşmış olur".

❑ **Günel MANAFLI**

# Özbək, türkmən, uyğur, tatar, azər bir boydur...

## Çin rejiminin zülmünə məruz qalan uyğurların şanlı keçmişi, dünəni və bu günü...

**Çinin Şərqi Türkistan bölgəsində baş verən hadisələr bütün türk dünyasında böyük nigarançılıq yaradıb. Məlumata əsasən, ötən illərdə olduğu kimi, bu il də müqəddəs Ramazan ayını qeyd etmək uyğur türklərinə qadağan olunub. Belə ki, Ramazan boyunca bölgədə yaşayan, dövlət strukturunda işləyənlər, müəllim və tələbələr oruc tuta, namaz qıla və yaxud məscidlərə gedə bilməzlər.**



Qadağanı pozan uyğurlar Çin polisi tərəfindən təqib edilir, hətta qətlə yetirilir. Yayılan xəbərlərə görə, bu səbəblə hələ ötən həftə 28 uyğur türkü qətlə yetirilib. Bir çox hallarda qanlı olaylar terrorla mübarizə maskası altında həyata keçirilir. Bir sözlə, Çində uyğur türklərinə qarşı soyqırım siyasəti həyata keçirməkdən çəkinmirlər.

Şərqi Türkistanda baş verən bu kimi qanlı olay və facielər ilk dəfə deyil. Uyğurların tarix boyu yaşadıqları müsibətlər dünyanın gözü qarşısındaca baş verib. Lakin hələ ki bu cür qətliamlara dünya susmaqla cavab verir. Bəs uyğurlar kimdir, onların adət-ənənələri nədən ibarətdir?

*Özbək, türkmən, uyğur, tatar, azər bir boydur, Qaraqalpaq, qırğız, qazax bunlar bir soydur...*

Uyğurlar hunların birbaşa təmiz kökdən gəlmə törəmələri sayılır. Türklər barəsində araşdırma aparan alimlər də təsdiqləyir ki, uyğurlar başqa xalqlarla heç bir "qatqısı" olmayan əsl türkəsilli, türk genli xalqdır. "Uyğur" sözü" ilk dəfə bizim eradan 200 il əvvəl Çin mənbələrində rast gəlinir. Bu mənbələrdə "uyğur" sözü "şahin sürətilə dolaşan və hücum edən" kimi göstərilir. Lakin türk tarixçiləri bunu doğru hesab etmir, "uyğur" adının ("əqrəba", "müttəfiq") və gur ifadələrinin birləşməsindən yarandığını irəli sürürlər.

Uyğur qəbilələri əsasən Şərqi Türkistanda və monqol səhralarında yerləşirdi. Çağdaş Şərqi Türkistan Qazaxıstan, Qırğızıstan, Monqolustan, Tibet, Hindistan, Pakistanla sərhəddir. 19-cu əsrin ikinci yarısında uyğurlar müstəqil Uyğur Dövlətini yarada bilmişdilər. Rusiya, Osmanlı, Böyük Britaniya imperiyaları Uyğur dövlətini rəsmi surətdə tanıdılar. Lakin ingilislər uyğurların Rusiyanın təsiri altına düşəcəyindən ehtiyatlanaraq, mancurları silahlandıraraq Şərqi Türkistana hücum etməyə sövq etdilər. Beləliklə də Çin-Mancur qoşunları bu dövləti işğal edərək ölkənin adını Şərqi Türkistan deyil, "Şincan"(indiki Sintzyan) adlandırmağa başladılar. "Şincan"-"yeni ərazi, sərhəd" anlamındadır.

Çinin tabeliyində olarkən uyğurlar bir neçə dəfə azadlıq hərəkatı uğrunda mübarizə apardılar. İki dəfə Şərqi Türkistan Respublikası (1933-cü ildə Birinci Şərqi Türkistan dövlətini, 1943-cü ildə isə İkinci Şərqi Türküstan dövlətini) qurdular. Hər iki hərəkatın yatırılmasında SSRİ-nin xüsusi fəallığı oldu. Burda həm siyasi, həm də hərbi maraqlar mövcud idi. Çinlə razılaşmadan sonra hər iki hərəkat amansızlıqla yatırıldı. Uyğur ailələrində ən azı 4-5 uşaq olur. Lakin Çin əhali sayının çoxluğuna görə uyğur ailələrində çoxuşaqlığa qadağa qoyub. Çin hökuməti tək uşaqlı ailələrə daha böyük imkanlar verir, yaşayış tərzinin yaxşılaşdırılmasına şərait yaradır. Statistikaya görə, Çində 11 milyondan çox uyğur türkü yaşayır ki, onların da 93 %-ə qədəri Çin vətəndaşlarıdır. Lakin mühacir həyatı yaşayan uyğurların sayı məlum deyil.

### Təhsil

Çində uyğurların öz ana dilində məktəbləri var. Lakin qərara əsasən uyğurlar Çin dilində də təhsil almalıdırlar. Uyğur əlifbasına gəldikdə, əvvəllər uyğurlar ərəb əlifbası ilə yazıblar, sonra kril, daha sonra latın əlifbasına keçərək yenidən ərəb əlifbası ilə yazmağa başlayıblar. Lakin ərəb əlifbasını da uyğur dil intonasiyasına uyğunlaşdıraraq xüsusi əlifba yaradıblar.

Uyğurlar dəqiq elmlərə, o cümlədən informasiya texnologiyaları, təbabət, ədəbiyyat, tarixə böyük maraq göstərirlər.

### Həbsə atılan "pantürkist"lər

Qazaxıstanın və Orta Asiya respublikalarının Çinlə bağladığı bir müqavilə var: emiqrasiya edərək Orta Asiya ölkələrinə gəlib oxuyan, evlənən uyğur gəncləri hər hansı iş qurmaq istəyəndə dərhal Çinə göndərilir, orda da "pantürkist", "bölücü" kimi mühakimə edilir, həbsxanalara atılırlar. Ancaq uyğurların Avropa ölkələrində hərəkatları, Orta Asiya ölkələrində təşkilatları var.

### Mübariz xalq

Uyğur xalqı tarix boyu öz müstəqilliyi uğrunda mübarizə aparıb. Bir neçə il bundan əvvəl ABŞ-da uyğur mühacirləri "Doğu Türkistan" dövləti yaratmışdılar. Ölkədən çıxmağa məcbur olan uyğur gəncləri daha çox Yaponiyaya üz tuturlar. Bildirək ki, Yaponiya uyğurları geniş ürəklə qəbul edir, onlara hər baxımdan yardım olmağa çalışır. Buna bariz nümunə kimi bugünlərdə Yaponiyanın paytaxtı Tokioda minlərə insanın Doğu Türkistandakı "Çin vəhşiliyi"nə qarşı keçirdiyi etiraz aksiyasını göstərmək olar.

Həmçinin Türkiyə dövləti Çin zülmündən qaçaraq uzun müddət Taylandda saxlanılan uyğurlara sahib çıxdı. Hər iki dövlət arasında gedən uzunmüddətli danışıqlardan sonra ağır şəraitdə saxlanılan, qadın və uşaqlardan ibarət 173 nəfər uyğur Türkiyə ərazisinə gətirildi.

Azərbaycan da türk xalqı olaraq bu cür etiraz aksiyasına qoşuldu. İyulun 1-də Bakıda Çinin Azərbaycandakı səfirliyinin qarşısında Şərqi Türkistanda baş verən hadisələrə etiraz olaraq aksiya keçirildi. Aksiya Milliyyətçi Gənclər Təşkilatı (MGT) tərəfindən təşkil olunmuşdu.

❑ **Xalidə GƏRAY**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 146 (6174) 7 iyul 2015*


# 16 min dollarlıq maşına 810 min dollarlıq nömrə aldı



Taylandda keçirilən hərracların birində 19 yaşındakı universitet tələbəsi ölkənin ən bahalı və ən şanslı sayılan Banqkok çıxışlı 1 .. 1111 seriyalı avtomobil nömrəsinə 25 milyon baht (təxminən 810 min dollar) pul ödəyib. Türkiyənin "Milliyet" qəzetinin xəbərinə görə, ölkənin ən nüfuzlu universitetlərindən biri olan Assumption Universitetində oxuyan Thanapat Tantisevekul "əgər lazım olsaydı 1,6 milyon dollara qədər artırmaya gedəcəkdim" deyib. 11 il əvvəlki hərracda bu nömrə üçün 11 milyon baht (təxminən 355 min dollar) verilmişdi. Nömrə üçün sərvət ödəyən gənc hərracı qazandığı üçün çox xoşbəxt olduğu və nömrəyə çox pul ödəməsi ilə bağlı rəylərə isə "o qədər də bahalı deyil" cavabını verib. Xatırladaq ki, tələbə 810 min dollarlıq nömrəni dəyəri 16 min dollar olan Nissan Almera avtomobilinə taxıb.



## Polisin maşınında yemək yedi, həbs olundu

Mançesterdə yaşayan bir kişini polis maşınının yük yerində şam yeməyi yediyi üçün həbs ediblər. 30 yaşlı kişi iyulun 6-na keçən gecə, saat 1-də polis maşınına girib. Hüquq-mühafizə orqanı əməkdaşlarından biri gecə reydi keçirən zaman gənc britaniyalının polis maşınında konfetlə südlü kokteyl içdiyini görüb. Həbs olunan kişinin sərxoş olduğu üzə çıxıb. Adı açıqlanmayan britaniyalıya ictimai asayişi pozduğu üçün cəza verilib.



## Marixuana xərçəngə səbəb olur

ABŞ-ın Kaliforiya Universitetindən olan mütəxəssislər bu haqda "Cancer" jurnalında məlumat verib. Belə ki,onlar marixuana çəkməklə müalicəyə tabe olmayanla yumurtalıq xərçəngi arasında sıx əlaqənin olduğunu müşahidə etmişlər.Kanserogen effekt nəinki davamlı istifadə zamanı, həmçinin maraq naminə bir və ya bir neçə dəfə dadına baxarkən də formalaşır.15-45 yaş arası əhali arasında daha intensiz şəkildə yayılan xəstəlik nəticə etibarilə müalicəyə çətin tabe olan və ümumiyyətlə olmayan şəkildə keçirilir və pis mühitin nəticəsidir.192 xəstə və 292 sağlam xəstəni sorğudan keçirən mütəxəssislər belə nəticəyə gəlmişlər ki, marixuanadan istifadə prosesi iki dəfəyə qədər sürətləndirir.

# Kişilər bu qadın tiplərinə nifrət edir

**Kişilərin sevmədiyi, yanına yaxınlaşdığı zaman hətta qaçaraq uzaqlaşdığı qadın tiplərindən olmaq istəmirsinizsə, bu məsləhətlərə diqqətlə yanaşın.**

**Hər şeyi bilən "mənəm"çilər:** Hər şey haqqında ən yaxşı mən bilirəm və qarşı tərəfin dediyi hər şey səhvdir. Kişilər bu tip qadınlardan heç zövq almır.

**Boşboğazlar:** Kişilər çox danışan, dayanmadan deyinən qadınlara dözmək belə istəmir.

**Həddən artıq romantik:** Kişilərə görə hər şeyin qədəri var, romantikanın da. Kişilər həddən artıq romantik qadınlardan uzaq gəzirlər. Onlara görə belə qadınlar çox bezdiricidir.

**Çox yemək yeyən:** Yemək yeməyi hamı sevir, amma həddən çox yemək yeyən qadınları kişilər sevmir.

**Özündən razı:** Kişilərin uzaq durduğu, salam belə vermək istəmədiyi ən təhlükəli qadın tipidir. Əsas da qarşı tərəfin etdiyi zarafatlara gülmürsə, əksinə, bunu məhv etməyə çalışırsa.





## Son 7 ayda 211 pişik itib

İngiltərənin İpsuiç şəhərində son 7 ayda 211 pişik itib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər verir. Pişiklərin axtarışı ilə bağlı koordinasiya üçün yerli sakinlər sosial şəbəkədə xüsusi qrup yaradıblar və orada 2.6 min nəfər var. Könüllülərdən biri olan Deni Parks danışıb ki, ayrıca sayt da hazırlanıb və orada itən pişiklərlə bağlı bütün məlumatlar toplanıb. Fəalın sözlərinə görə, şəhər sakinlərindən birinin üç pişiyi birdən itib. Bundan başqa, son bir neçə gündə şəhərdə 6 heyvan itib.

Qəzetin yazdığına görə, küçələrdə aparılan axtarış zamanı könüllülərdən biri iki pişiyi öz maşınına qoyan bir qadın görüb. Sakinlər bu qadın barədə polisə məlumat versələr də, onu aşkarlamaq mümkün olmayıb. Könüllülər hesab edir ki, pişiklərdən itlərin davası zamanı yem olaraq istifadə edilir.




**QOÇ** - Ulduzların düzümü maraqlı insanlarla rastlaşma ehtimalınızdan xəbər verir. Amma onların arasında bir neçəsi ovqatınızı aşağı salmağa çalışa bilər. Uzaqgörən və dözümlü olun.

**BUĞA** - Astroloji göstəricilər yalnız qonaqlıq və səfərlər üçün uğurlu ərəfə olduğunu bildirir. Odur ki, digər işlər barədə baş sındırmağa dəyməz. Nəzərə alın ki, mənfi yüklü Ay da sizin bürcdədir.

**ƏKİZLƏR** - Qarşınızda füsunkar bir gün var. Bəxtinizə inanırsınızsa risk etməyə dəyər. Çünki gözlənilməz sürprizlər yolunuzu gözləyir. İstənilən ikitərəfli əməkdaşlıq uğurludur.

**XƏRÇƏNG** - Təxminən saat 14-ə qədər özünüzü gərgin situasiyalardan qorumağa çalışın. Köhnə palan içi sökməyin. Bunu bacarsanız, günortadan sonra sevindirici xəbər eşidəcəksiniz. Maraqlı təkliflər də gözlənilir.

**ŞİR** - Maliyyə problemlərinizin artması ümumi ovqatınızda mənfi çalarlar yaratmaqdadır. Azacıq səbr edin, yaxın vaxtlarda kisəniz ağırlaşacaq. Gün boyu əsas diqqətinizi sevgiyə yönəldin ki, rahatlanasınız.

**QIZ** - Mövcud problemlərinizi həll etmək üçün kənardan dəstək almalısınız. Əks təqdirdə, uğursuzluqla üzləşəcəksiniz. Saat 14-17 aralığı bu baxımdan çox əlverişlidir.

**TƏRƏZİ** - İxtiyarınızda olduqca gərgin bir gün durur. Bəri başdan bütün vacib işlərinizi təxirə salın. Münaqişələrə həvəs göstərməyin, neytral olmağa çalışın. Bəxtinizdə pul da var.

**ƏQRƏB** - Hiss olunur ki, səhhətiniz ürəkaçan deyil. Lakin narahatçılığa əsas yoxdur. Çünki həkim əlinə düşməyəcəksiniz. Günortadan sonra sevindirici xəbər eşidəcəyinizə inanın. Səfəri təxirə salın.

**OXATAN** - Göy qübbəsi yalnız ailə-sevgi məsələlərində uğurlara yaxın olacağınızı bildirir. Fəaliyyətdə və ya digər münasibətlərdə isə vəziyyət heç də qənaətbəxş olmayacaq. Yalan danışmayın.

**OĞLAQ** - Yaxşı olar ki, saat 13-ə qədər bütün vacib işlərinizi təxirə salasınız. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Sonrakı saatlarda isə perspektivli sövdələşmələrin iştirakçısı olacaqsınız.

**SUTÖKƏN** - Daxili tərəddüdləriniz ümumi sabitliyinizi pozmaqdadır. Nəyi, necə edəcəyinizi müəyyənləşdirə bilmirsiniz. Odur ki, həyata açıq gözlə baxın. Enerjinizi sevgidən alın.

**BALIQLAR** - Nə qədər yorucu təqvim olsa da, usanmağa dəyməz. Çünki yeni həftədə zəhmətinizin bəhrəsini görəcəksiniz. Saat 17-dən sonra ürəyinizə yaxın simsarlarınıza baş çəkməyə çalışın. Dərman qəbul etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadınlar istirahət etməyi bacarmır



Kanadanın Montreal Universitetinin apardığı araşdırmaya görə, qadınların beyini istirahət edərkən belə çalışır. Qadınlar istirahət edərkən bir çox şey haqda düşünürlər, kişilər isə istirahətdən həzz alırlar. Alimlər sübut ediblər ki, qadınlar məsuliyyətli olduqlarına görə kişilərdən daha çox düşünürlər. Amma tədqiqat zamanı o da üzə çıxıb ki, istirahət zamanı qadınlar detallar üzərində daha çox düşünüb, istirahəti özlərinə zəhər edirlər. Məsələn, tətildən sonrakı qayğılar, iş yerindəki problemlər onları relax olmağa qoymur. Son nəticədə isə beynini yükləyən zərif cinsin nümayəndəsi istirahətin dadını çıxara bilmir. Araşdırmalar onu da göstərib ki, qadınlar istirahətdən sonrakı dönəmdə də ondan yaxşı zövq ala bilmədikləri üçün özlərini günahkar hiss edirlər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300